RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN



№ 220 (10240) 28 noyabr 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



Dünyanın diqqəti Azərbaycandadır

Hanoydan Vaşinqtona, Berlindən Romaya uzanan diplomatik təmaslar Bakının beynəlxalq münasibətlər sistemindəki fəal rolunu nümayiş etdirir

Müxtəlif qitələri təmsil edən yüksəksəviyyəli rəsmilərin Bakıya səfərləri, Cənub-Şərqi Asiyaya uzanan rəsmi marşrut və imzalanan strateji sənədlər ölkəmizin beynəlxalq nüfuzunun növbəti təntənəsinə çevrildi. Prezident İlham Əliyevin bu qısa müddətdəki diplomatik qrafiki sübut etdi ki, həm qlobal güc mərkəzlərinin maraqları Bakıda uzlaşır, həm də mühüm beynəlxalq proseslərin axarı paytaxtımızda formalaşır.

Noyabrın 17-də həm Avropanın aparıcı ölkələrindən sayılan Almaniyanın xarici işlər naziri Yohan David Vadeful, həm də qonşu Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvili Bakıda Prezident İlham Əliyevin qəbulunda oldular. Almaniya rəsmisi ilə müzakirələrdə Azərbaycan qazının artıq bu ölkəyə ixracı və Biznes Şurasının fəaliyyəti gündəmə gəldi, Gürcüstan təmsilçisi ilə söhbətdə isə Orta dəhliz və enerji layihələri masada müzakirə mövzusu oldu. Yəni Bakı eyni gündə həm Avropanın mərkəzi ilə strateji gündəliyini yenilədi, həm də yaxın qonşusu ilə regional sabitliyin təməlini möhkəmləndirdi.

Almaniya xarici işlər naziri Yohan David Vadefulla görüşdə ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, siyasi, iqtisadi, sərmayələr, biznes, ənənəvi və alternativ enerji, bağlantılar, nəqliyyat, logistika, turizm və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi. Ölkəmizin Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verdiyi, bu ildən başlayaraq Azərbaycan qazının Almaniyaya ixracı qeyd olundu.

Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvili Prezident İlham Əliyevin qəbulunda olarkən, Azərbaycanla Gürcüstanın birgə həyata keçirdiyi enerji və nəqliyyat layihələrinin daha geniş region üçün mühüm əhəmiyyət kəsb etdiyi vurğulandı.

İki gün sonra isə Prezident İlham Əliyevin diplomatik marşrutu Cənub-Şərqi Asiyaya yönəldi. Noyabrın 19-21-də Vyetnama rəsmi səfər, Hanoyda Prezident To Lam ilə qəbul edilən Birgə Bəyanat, iki ölkə arasında imzalanmış sənədlər göstərdi ki, Azərbaycanın diplomatiyası coğrafi sərhəd tanımır. Avropa ilə dərin əməkdaşlıq quran Bakı, Asiyanın sürətlə yüksələn gücü ilə də eyni səmimiyyət və bərabərhüquqlu tərəfdaşlıq əlaqələrini möhkəmləndirir.

4

Bakıda Estoniya səfirliyinin rəsmən açılması əlaqələrimizin inkişafının göstəricisidir

Prezident İlham Əliyev Estoniyanın xarici işlər nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də Estoniya Respublikasının xarici işlər naziri Marqus Tsahknanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısı ilə Estoniyanın xarici işlər nazirinin ötən il Bakıdakı görüşü məmnunluqla xatırlandı.

Azərbaycanla Estoniya arasında münasibətlərin dinamik şəkildə genişləndiyini deyən Prezident İlham Əliyev hökumət nümayəndələri arasında görüşlərin keçirilməsinin yaxşı nəticələr verəcəyinə ümidvarlığını bildirdi, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafı baxımından roluna toxundu və əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan-Avropa İttifaqı münasibətlərinin də uğurla inkişaf etdiyini dedi, bu il Avropa İttifaqı rəhbərliyinin ölkəmizə səfərlərini və Dublin Sammiti çərçivəsində keçirilmiş görüşləri xatırladı.

Prezident İlham Əliyev ölkələrimiz arasında tərəfdaşlığın irəli aparılması üçün məsələləri müzakirə etmək baxımından Estoniyanın xarici işlər nazirinin səfərinin uğurlu olacağına ümidvarlığını ifadə etdi.

Qəbula görə minnətdarlığını bildirən Marqus Tsahkna Azərbaycanın sürətli inkişafının şəxsən şahidi olduğunu dedi, ölkəmizin regionda önəmli rol oynadığını vurğuladı.

Münasibətlərimizin yaxşı səviyyədə olduğunu qeyd edən nazir ölkəmizə səfəri çərçivəsində Estoniyanın Azərbaycandakı səfirliyinin rəsmən açılacağını bildirdi və ikitərəfli münasibətlərimizin inkişafı baxımından bu hadisənin önəminə toxundu.

Dövlətimizin başçısı Bakıda Estoniya səfirliyinin rəsmən açılmasını əlaqələrimizin inkişafının göstəricisi kimi qiymətləndirdi.

Söhbət zamanı Azərbaycanla Estoniya arasında informasiya texnologiyaları, rəqəmsal transformasiya, bağlantılar və digər istiqamətlərdə əməkdaşlıqla bağlı məsələlər müzakirə olundu, ölkəmizin yeni bağlantı xətlərinin sayını artırdığı vurğulandı.

Görüşdə ikitərəfli əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Albaniya Azərbaycanın Balkan yarımadasında etibarlı tərəfdaşıdır



Son illər Azərbaycan ilə Albaniya arasında dostluq və tərəfdaşlıq münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoyub. Bakı və Tirana arasında dövlət və hökumət başçıları səviyyəsində keçirilən görüşlər ("Cənub Qaz Dəhlizi" Məşvərət Şurası və müxtəlif beynəlxalq forumlar çərçivəsində) ikitərəfli siyasi iradənin bariz nümunəsidir. Hər iki dövlət birbirinin suverenliyini və ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləmiş, BMT, ATƏT və Avropa Şurası çərçivəsində vahid mövqedən çıxış etmişlər.

İkitərəfli əlaqələrin genişlənməsi fonunda ötən il mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Albaniya Respublikasının Baş naziri Edi Ramanın və Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın dəvəti ilə "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə Toplantısında iştirak etmək məqsədilə Tiranaya işgüzar səfər edib. Dövlətimizin başçısının bu səfəri "Avropa Siyasi Birliyi" platformasında aparılan müzakirələrdə Azərbaycanın fəal iştirakını təmin etməklə yanaşı, Azərbaycan-Albaniya əməkdaşlığının dərinləşdirilməsi baxımından da əhəmiyyətli hadisədir.

5

"Sülh körpüsü" praktiki müstəviyə keçir

"Sülh körpüsü" təşəbbüsünün əsas xüsusiyyətlərindən biri də vətəndaş cəmiyyəti nümayəndələrinin dövlət rəsmiləri ilə birbaşa ünsiyyət qurmaq imkanına malik olmasıdır. Ənənəyə uyğun olaraq, müzakirələr çərçivəsində Ermənistan Təhlükəsizlik Şurasının katibi Alen Simonyan da iştirakçılarla görüşüb. Görüş zamanı iştirakçılar Alen Simonyana onları maraqlandıran sualları birbaşa ünvanlayıb, tərəflər arasında mövcud reallıqlar və gələcək perspektivlər ətrafında açıq fikir və mülahizələr mübadiləsi aparılıb. Nümayəndələrin qərar qəbul edən rəsmi şəxslərlə açıq formatda təması cəmiyyətləri narahat edən suallara cavab tapmaq və sülh prosesinə töhfə baxımından xüsusi əhəmiyyət daşıyır.

Digər tərəfdən, vətəndaş cəmiyyəti təmsilçilərinin dövlət rəsmiləri ilə birbaşa dialoqu həm də rəsmi İrəvanın sülh prosesinə nə dərəcədə hazır olub-olmadığını nümayiş etdirir. Belə görüşlər Ermənistan cəmiyyətində sülh gündəliyinə qarşı çıxan revanşist dairələrin manipulyasiyalarının qarşısını almaq və real vəziyyəti ictimaiyyətə düzgün çatdırmaq baxımından da əhəmiyyətlidir. Lakin ictimai diplomatiyanın davamlı nəticələr verməsi və bu təmasların formal xarakter daşımaması üçün İrəvandan rəsmi səviyyədə verilən bəyanatların konkret hüquqi və siyasi qərarlarla tamamlanması zəruridir.

6



Naxçıvan dağ-mədən yataqları ilə də zəngindir



Naxçıvan Muxtar Respublikasının 2023-2027-ci illərdə sosial-iqtisadi inkişafına dair dövlət proqramında da mineral xammal ehtiyatlarının öyrənilməsi və qiymətləndirilməsi ilə bağlı bir sıra mühüm tədbirlər öz əksini tapıb. Bu istiqamətlərdən biri filiz və qeyri-filiz yataqlarının beynəlxalq qiymətləndiricilərin iştirakı ilə qiymətləndirilməsi və investisiya üçün açılmasıdır. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi rəsmisinin bildirdiyinə görə, bu məqsədlə 2024-cü ildə Türkiyə Respublikası Enerji və Təbii Sərvətlər Nazirliyinin Mədən Tədqiqi və Axtarış Baş İdarəsi ilə müqavilə imzalanıb. Müqavilə çərçivəsində "Parağaçay-molibden", "Qapıcıq-molibden" və "Gümüşlü" yataqlarında geoloji tədqiqat işlərinə başlanıb. Ümumilikdə layihə üzrə 3800 poqonometr həcmində buruq-qazma işləri aparılıb, 4 mindən çox sınaqlaşdırma həyata keçirilib, eləcə də digər kompleks geoloji tədqiqat işləri yerinə yetirilib. Aparılmış işlərin nəticələri əsasında yekun hesabatlar hazırlanıb. Qiymətləndirmənin nəticələrinə əsasən, hər üç yatağın perspektivli olduğu müəyyənləşdirilib. Növbəti mərhələdə daha dəqiq geoloji-kəşfiyyat işlərinin aparılması və yataqlardakı resursların tam və dəqiq hesablanması məqsədəuyğun hesab edilir.

6

"Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "TotalEnergies EP Absheron B.V.", "SOCAR Absheron" və "ADNOC InternationalProjectCo 1 RSC Limited" şirkətləri arasında dəyişdirilmiş və yeni redaksiyada tərtib olunmuş Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

1. 2026-cı il sentyabrın 26-da Bakı şəhərində imzalanmış "Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "TotalEnergies EP Absheron B.V.", "SOCAR Absheron" və "ADNOC InternationalProjectCo 1 RSC Limited" şirkətləri arasında dəyişdirilmiş və yeni redaksiyada tərtib olunmuş Saziş (bundan sonra - Saziş) qəbul və təsdiq edilsin, onun həyata keçirilməsinə icazə verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Sazişin Podratçı tərəflərinə Sazişin 2009-cu il fevralın 27-də imzalanmış ilkin redaksiyası üzrə verilmiş və Sazişin həmin redaksiyası ilə birlikdə Azərbaycan Respublikasının 2009-cu il 22 may tarixli 814-IIIQ nömrəli Qanunu ilə qəbul edilmiş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri (bundan sonra Hökumət təminatı) qüvvədə qalır.

3. Sazişin əsas mətninə edilmiş 12 (on iki) Əlavə (bundan sonra Əlavələr) qəbul və təsdiq edilsin və onların həyata keçirilməsinə icazə verilsin.

4. Bu Qanun qüvvəyə mindikdən sonra Saziş və Əlavələr Qanun olur, Hökumət təminatı isə Azərbaycan Respublikasının Qanunu olaraq qüvvəsini saxlayır. Sazişdə konkret surətdə başqa hallar müəyyən edilmədiyi təqdirdə, Saziş, Hökumət təminatı və Əlavələr Sazişin qüvvədə olduğu müddət ərzində bu Sazişə, Hökumət təminatına və Əlavələrə uyğun gəlməyən və ya zidd olan Azərbaycan Respublikasının hər hansı başqa mövcud və ya qəbul olunacaq qanunlarının, fərmanlarının, yaxud inzibati sərəncamlarının (və ya onların hissələrinin) müddəalarından üstün tutulur.

5. Bu Qanun qüvvəyə mindikdən sonra Sazişdə nəzərdə tutulan kontrakt sahəsinin istənilən hissəsi barəsində əvvəllər bağlanmış hər hansı saziş, kontrakt və ya bu cür başqa sənədlə verilə bilən bütün digər hüquq və vəzifələr ləğv edilir (bu Qanunun 2-ci maddəsi və Sazişin onun dəyişdirilməsinin və yeni redaksiyada tərtib edilməsinin hüquqi nəticələrinə dair müddəaları nəzərə alınmaqla), habelə bu Qanun qüvvəyə mindikdən sonra Sazişin, Hökumət təminatının və Əlavələrin şərtlərinə müvafiq surətdə və qüvvədə olduğu bütün müddət ərzində Sazişin Podratçı tərəflərinə kontrakt sahəsində neft-qaz əməliyyatları aparmaq üçün müstəsna hüquq verilir.

6. Bu Qanun qüvvəyə mindikdən sonra Podratçı tərəflərin (və ya onların hüquqi varislərinin) Saziş, Hökumət təminatı və Əlavələr üzrə əldə etdiyi hüquqlar və mənafelər Podratçı tərəflərin qabaqcadan razılığı olmadan dəyişdirilə, düzəldilə və ya azaldıla bilməz.

7. Sazişdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsi üçün Sazişin iştirakçılarına bütün lazımi lisenziyalar, gömrük icazələri, vizalar, başqa səlahiyyətlər və icazələr verilir.

8. Sazişə və ya Əlavələrə hər hansı əlavələr, düzəlişlər, dəyişikliklər yalnız Sazişin şərtlərinə və müddəalarına uyğun olaraq Sazişin və Əlavələrin tərəflərinin yazılı razılığı ilə edilir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 noyabr 2026-cı il

"Azıx-Tağlar Arxeoloji Parkı" Dövlət Qoruğunun fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər və "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyun tarixli 196 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 395 **Bakı şəhəri, 27 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azıx-Tağlar Arxeoloji Parkı" Dövlət Qoruğunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 21 oktyabr tarixli 1274 nömrəli Sərəncamının 2.1.1-ci, 2.1.3-cü yarımbəndlərinin və 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azıx-Tağlar Arxeoloji Parkı" Dövlət Qoruğunun Əsasnaməsi" təsdiq edilsin *(əlavə olunur).*

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi üç ay müddətində:

2.1. "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının 3.7-ci bəndinə uyğun olaraq, "Azıx-Tağlar Arxeoloji Parkı" Dövlət Qoruğunun işçilərinin say həddini (ştat vahidlərini) və strukturunu Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla təsdiq etsin;

2.2. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyun tarixli 196 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 749 (Cild I); 2024, № 7, maddə 910; 2025, № 3, maddə 267, № 7, maddə 709; 2026, № 9, maddələr 957, 974, 982; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 2 oktyabr tarixli 320 nömrəli və 15 oktyabr tarixli 342 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın "I. Büdcədən maliyyələşdirilən qurumlar" bölməsinin "7. Dövlət qoruqları, muzey tipli müəssisələr" hissəsinə aşağıdakı məzmunda 7.24-cü bənd əlavə edilsin:

"7.24. "Azıx-Tağlar Arxeoloji Parkı" Dövlət Qoruğu".

4. "Azıx mağarasının Azərbaycan SSR Elmlər Akademiyasının qoruğu elan edilməsi haqqında"Azərbaycan SSR Nazirlər Sovetinin 1969-cu il 21 aprel tarixli 158 nömrəli Qərarı ləğv edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.

ANAMA-nın minatəmizləmə əməliyyatları və təlim imkanları ilə tanışlıq olub



Baş nazirin müavini Teymur Musayev işğaldan azad edilmiş ərazilərdə icra olunan humanitar minatəmizləmə əməliyyatları və Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) təlim potensialı ilə tanışlıq məqsədilə Ağdam və Göygöl rayonlarına səfər edib. Səfər çərçivəsində Baş nazirin müavinini ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov müşayiət edib.

Bu barədə AZƏRTAC-a ANAMA-dan məlumat verilib.

Bildirilib ki, Ağdam rayonunun Nəmirli kəndi ərazisində icra edilən minatəmizləmə əməliyyatları ilə tanışlıq zamanı Vüqar Süleymanov Baş nazirin müavininə əməliyyatların təşkili və icra prosesi, əldə olunan nəticələr və qarşıya çıxan çətinliklər barədə ətraflı məlumat verib. Həmçinin mina və digər partlayıcı sursatlarla çirklənmiş ərazilərin təmizlənməsində tətbiq olunan üsullar, istifadə edilən texniki vasitələr, əməliyyatların səmərəliliyinin artırılması istiqamətində görülən tədbirlər və əhalinin təhlükəsizliyinin təmin olunması məqsədilə həyata keçirilən çəpərləmə işlərinin mövcud vəziyyəti barədə məlumat təqdim edilib.

Səfər çərçivəsində Teymur Musayev ANAMA-nın Ağdam mobil bazasının maddi-texniki imkanları, infrastrukturu, əməliyyatların idarə edilməsi və koordinasiyası üçün yaradılmış şəraitlə tanış olub.

Sonra Göygöl rayonuna səfər edən Baş nazirin müavini ANAMA-nın Göygöl Təlim Mərkəzinin fəaliyyəti və mövcud şəraiti ilə tanış olub. Mərkəzin tədris infrastrukturu, təlimlərin təşkili üçün yaradılmış şərait, istifadə olunan tədris avadanlıqları və praktiki məşğələlərin keçirildiyi sahələr barədə ətraflı məlumat təqdim edilib. Həmçinin minatəmizləmə sahəsində mütəxəssislərin hazırlanması, əməliyyat heyətinin bilik və bacarıqlarının artırılması, beynəlxalq standartlara uyğun təlim prosesinin təşkili istiqamətində görülən işlər diqqətə çatdırılıb.

Qeyd olunub ki, işğaldan azad edilmiş ərazilərdə mina və digər partlayıcı sursat təhlükəsinin aradan qaldırılması əhalinin təhlükəsizliyinin təmin olunması, infrastruktur layihələrinin icrası, sosial-iqtisadi fəaliyyətin bərpası və Böyük qayıdış prosesinin davamlı şəkildə həyata keçirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Səfər çərçivəsində aparılan tanışlıq humanitar minatəmizləmə fəaliyyətinin mövcud vəziyyətinin, bu sahədə əldə olunan nəticələrin və qarşıda duran prioritet vəzifələrin yerində qiymətləndirilməsi baxımından əhəmiyyət kəsb edib.

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 fevral tarixli 48 nömrəli Qərarı ilə təsdiq edilmiş "Artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarının, faizlərin və maliyyə sanksiyalarının qaytarılması Qaydaları"nda, 2004-cü il 24 may tarixli 75 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"nda və 2025-ci il 19 dekabr tarixli 404 nömrəli Qərarı ilə təsdiq edilmiş "Polis əməkdaşlarının sosial müdafiəsini gücləndirmək və polis orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 394 **Bakı şəhəri, 26 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 dekabr tarixli 572 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 fevral tarixli 48 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 2, maddə 126 (Cild I); 2024, № 1, maddə 122, № 5 (II kitab), maddə 583, № 9, maddə 1050; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 28 oktyabr tarixli 362 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarının, faizlərin və maliyyə sanksiyalarının qaytarılması Qaydaları"nın 4.10-cu (ikinci halda) və 5.2-ci bəndlərinə "yerli" sözündən sonra "(regional)" sözü əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 may tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 391 (Cild I); 2024, № 12 (II kitab), maddə 1455; 2026, № 4, maddə 371) ilə təsdiq edilmiş "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.9-cu bəndin ikinci abzasına ikinci halda "yerli" sözündən sonra "(regional)" sözü əlavə edilsin;

2.2. 5-ci hissə üzrə:

2.2.1. 5.3-cü bəndin birinci cümləsinə ikinci halda "yerli" sözündən sonra "(regional)" sözü əlavə edilsin;

2.2.2. 5.40.4-cü yarımbəndə birinci halda "yerli" sözündən sonra "(regional)" sözü əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 19 dekabr tarixli 404 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 12 (II kitab), maddə 1249) ilə təsdiq edilmiş "Polis əməkdaşlarının sosial müdafiəsini gücləndirmək və polis orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın 2.1-ci bəndində "Xəzinədarlığı" sözü "Xəzinədarlıq" sözü ilə əvəz edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Xarici işlər naziri Ceyhun Bayramov bir sıra görüşlər keçirib

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Estoniyanın xarici işlər naziri Marqus Tsahkna geniş tərkibdə görüş keçiriblər.





AZƏRTAC xəbər verir ki, görüş zamanı nazirlər Azərbaycan-Estoniya münasibətlərinin hazırkı vəziyyəti, ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi perspektivləri, eləcə də əsas regional və beynəlxalq proseslər ətrafında hərtərəfli müzakirələr aparıblar.

Nazirlər ikitərəfli təmasların və qarşılıqlı səfərlərin intensivləşməsini alqışlayaraq, siyasi dialoqun gücləndirilməsinin, Xarici İşlər nazirlikləri arasında müntəzəm siyasi və konsulluq məsləhətləşmələrinin davam etdirilməsinin, eləcə də parlamentlərarası əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulayıblar.

Nazir Ceyhun Bayramov estoniyalı həmkarını Estoniyanın Azərbaycanda səfirliyinin təsis edilməsi münasibətilə təbrik edərək, onun fəaliyyətə başlamasının ikitərəfli münasibətlərin möhkəmləndirilməsinə, siyasi dialoqun genişləndirilməsinə və əməkdaşlığın institusional əsaslarının gücləndirilməsinə töhfə verəcəyini qeyd edib.

Görüşdə ticarət və iqtisadi əməkdaşlığın genişləndirilməsinə xüsusi diqqət yetirilib. Nazirlər noyabrın 4-də keçirilmiş Azərbaycan-Estoniya Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın iclasının əhəmiyyətini vurğulayaraq, növbəti iclasın yeni sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün əlavə imkanlar yaradacağını qeyd ediblər. Həmçinin nəqliyyat, rəqəmsallaşma, təhsil və digər sahələrdə əməkdaşlığın gücləndirilməsi perspektivləri nəzərdən keçirilib.

Nazir Ceyhun Bayramov həmkarını Azərbaycan və Ermənistan arasında normallaşma prosesi, regionda baş verən son hadisələr və sülh gündəliyinin irəli aparılması istiqamətində atılan addımlar barədə məlumatlandırıb.

O, həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri, keçmiş məcburi köçkünlərin təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtmasının təmin edilməsinə yönəlmiş tədbirlər, eləcə də minaların yaratdığı humanitar çətinliklər barədə qarşı tərəfə məlumat verib.

Nazirlər beynəlxalq təşkilatlar və çoxtərəfli platformalar çərçivəsində əməkdaşlıq, həmçinin qarşılıqlı maraq doğuran digər əsas məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

Görüşün yekunda nazirlərin mətbuat konfransı keçirilib və media nümayəndələrinin sualları cavablandırılıb.

* * *

Noyabrın 27-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qətər Dövlətinin xarici işlər üzrə dövlət naziri Sultan bin Saad Al-Mureyxinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüş zamanı Azərbaycan-Qətər münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Tərəflər həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın, xüsusilə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində qarşılıqlı fəaliyyətin əhəmiyyətini vurğulayıblar.

Oktyabrın 15-də Bakıda keçirilmiş Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 7-ci Zirvə Görüşündə Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin iştirakı məmnunluqla qeyd olunub.

Görüşdə həmçinin qarşı tərəfə Azərbaycanın 2027-ci ildə İslam Əməkdaşlıq Təşkilatına (İƏT) sədrliyi prioritetləri və Bakıda keçiriləcək İƏT-in Zirvə Görüşü barədə məlumat verilib.

Bununla yanaşı, Yaxın Şərqdə və digər regionlarda mövcud vəziyyət, regional və beynəlxalq təhlükəsizlik məsələləri, qarşılıqlı maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Eyni gündə həmçinin Azərbaycan və Qətər Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən nazir müavini Yalçın Rəfiyev, Qətər tərəfindən isə xarici işlər üzrə dövlət naziri Sultan bin Saad Al-Mureyxi rəhbərlik edib.

Məsləhətləşmələr çərçivəsində ikitərəfli münasibətlərin müxtəlif aspektləri, o cümlədən iqtisadi və humanitar sahədə əməkdaşlıq imkanları müzakirə olunub.

Ceyhun BAYRAMOV:

"Estoniyanın Bakıda səfirliyinin açılması münasibətlərdə mühüm mərhələdir"



Xarici işlər naziri Ceyhun Bayramov Estoniyanın Azərbaycandakı səfirliyinin rəsmi açılış mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, mərasimdə çıxış edən nazir Estoniyanın Bakıda rezident diplomatik nümayəndəliyinin fəaliyyətə başlamasını alqışlayaraq, bunun münasibətlərdə mühüm mərhələ kimi əhəmiyyətini vurğulayıb.

Milli Məclisin plenar iclasında

Parlament yeni enerji sazişini təsdiq etdi

Noyabrın 27-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayevanın başçılıq etdiyi parlament nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri barədə məlumat verib. Bildirilib ki, səfərin məqsədi İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumunda iştirak etmək olub.



Milli Məclisin Sədri qeyd edib ki, noyabrın 25-də parlament sədrlərinin iştirakı ilə İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumun açılış mərasimi keçirilib. Tədbir "Azərbaycan-Özbəkistan əbədi dostluq və müttəfiqlik münasibətlərinin parlament ölçüsü" mövzusuna həsr edilib.

Çıxışında Birinci forumun keçirildiyi vaxtdan ötən dövr ərzində ölkələrimiz arasında qardaşlıq əlaqələrinin daha da inkişaf etdiyini bildirən parlamentin spikeri, Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin qarşılıqlı səfərlərinin baş tutduğunu, habelə Ali Dövlətlərarası Şuranın ikinci və üçüncü iclaslarının keçirildiyini deyib. Bu ilin avqustunda Daşkənddə imzalanmış "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əbədi dostluq haqqında Müqavilə"nin bu ay Milli Məclis tərəfindən də təsdiqləndiyi vurğulanıb. Qeyd olunub ki, iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlıq genişləndikcə bu əməkdaşlığın hüquqi bazasının təkmilləşdirilməsində parlamentlərimizin rolu da artır.

Milli Məclisin Sədri xatırladıb ki, Azərbaycan və Özbəkistan parlamentlərinin Birinci forumu ötən ilin iyulunda Xivə şəhərində keçirilib. Həmin tədbirdə birgə əməkdaşlığın prioritetləri müəyyən edilib. Xivə Bəyannaməsi qəbul olunub, 2025-2026-cı illər üçün "Yol xəritəsi" və Parlamentlərarası əməkdaşlıq komissiyasının reqlamenti imzalanıb.

Diqqətə çatdırılıb ki, bu dəfə dövlət rəhbərləri səviyyəsində imzalanmış razılaşmaların qanunvericilik təminatı məsələsinə xüsusi diqqət yetirilib. Panel müzakirələrinin gedişində deputatlar ticarət və investisiya qoyuluşu, energetika, rəqəmsal inkişaf, habelə təhsil, mədəniyyət və gənclər siyasəti sahələrində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Forumun yekunları ilə bağlı Bakı Bəyannaməsi qəbul edilib. Parlament sədrləri 2027-2028-ci illər üçün yeni "Yol xəritəsi"ni imzalayıblar.

Parlamentin spikeri deyib ki, forum başa çatdıqdan sonra Azərbaycan və Özbəkistan parlamentləri sədrlərinin iştirakı ilə Parlamentlərarası əməkdaşlıq komissiyasının birinci iclası keçirilib. Parlament sədrlərinin və deputatların çıxışlarında parlamentlərarası əlaqələrin vəziyyəti, inkişaf perspektivləri barədə fikirlər səsləndirilib.

Forumun nəticələri ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi baxımından böyük əhəmiyyətə malikdir. İclasda komissiyanın məqsəd və vəzifələri, parlamentlərin profil komitələri arasında birbaşa əlaqələrin genişləndirilməsi imkanları və digər məsələlər də müzakirə olunub.

Spiker Sahibə Qafarova əminliklə bildirib ki, Bakı Forumunun yekunları parlamentlərarası əməkdaşlığın daha sistemli xarakter almasını təmin edəcək, Azərbaycanla Özbəkistanın qardaşlıq və müttəfiqlik münasibətlərinin inkişafına töhfə verəcək. O əlavə edib ki, İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumu həm məzmun, həm də forma baxımından yüksəksəviyyəli tədbir olub.

Milli Məclisin deputatları, o cümlədən Parlamentlərarası əməkdaşlıq komissiyasının həmsədri, Milli Məclis Sədrinin müavini Musa Qasımlı, komitə sədrləri Əli Hüseynli, Azər Əmiraslanov, Səməd Seyidov və digər həmkarlarımız forumun panel sessiyalarında və komissiyanın iclasında həm moderator olublar, həm də maraqlı çıxışlar ediblər.

Sonra iclasda cari məsələlərin müzakirəsi aparılıb. Deputatlar Tural Gəncəliyev, Bəhruz Məhərrəmov, Elman Nəsirov, Məlahət İbrahimqızı, Hikmət Məmmədov, Zaur Şükürov, Aydın Mirzəzadə, Jalə Əliyeva, Razi Nurullayev, Nizami Səfərov çıxış edərək gündəmdə olan bəzi məsələlər barədə fikirlərini bölüşüblər. Çıxış edənlər qlobal qarşıdurmalar fonunda Cənubi Qafqazda formalaşan sülh mühiti, Azərbaycanın bu prosesdəki aparıcı rolu və regiondakı müsbət inkişafdan danışıblar. Bildirilib ki, dünyadakı gərginliklərə baxmayaraq, Prezident İlham Əliyevin və Azərbaycan dövlətinin siyasəti nəticəsində Cənubi Qafqaz qarşıdurma zonasından əməkdaşlıq məkanına çevrilib. Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm addımlar atılıb. Habelə vurğulanıb ki, Vaşinqtonda sülh müqaviləsi layihəsinin paraflanması, Ermənistana məhsul tranziti üzrə məhdudiyyətlərin aradan qaldırılması və iki ölkənin vətəndaş cəmiyyəti nümayəndələrinin görüşləri Azərbaycanın sülhə sadiqliyini təsdiqləyib. Bununla yanaşı, Ermənistanın yeni konstitusiya layihəsindən Azərbaycana qarşı ərazi iddialarının çıxarılması sülh müqaviləsinin imzalanması üçün vacib addım kimi dəyərləndirilib.

Çıxışlarda Bakıda keçirilmiş İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumu və Parlamentlərarası Əməkdaşlıq Komissiyasının ilk iclası ölkələrarası strateji müttəfiqlik münasibətlərinin parlament müstəvisində mühüm siyasi nəticəsi kimi qiymətləndirilib. İkitərəfli əlaqələrin yüksək inkişaf mərhələsinə çatmasında Azərbaycan və Özbəkistan dövlət başçılarının siyasi iradəsi, eləcə də parlamentlər arasında qurulmuş səmərəli əməkdaşlıq xüsusi vurğulanıb.

Millət vəkilləri habelə Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının Parlamentlərarası Assambleyası (AIPA) çərçivəsində ölkəmizin artan beynəlxalq nüfuzu, həyata keçirilən uğurlu parlament diplomatiyası barədə söhbət açıblar. Müzakirələrdə bir sıra digər aktual məsələlərə də toxunulub.

Sonra Milli Məclisin Sədri iclasda 10 məsələnin müzakirə ediləcəyini bildirib. O, gündəliyin birinci məsələsinin beynəlxalq sazişlə bağlı olduğunu və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə uyğun olaraq bir oxunuşda qəbul ediləcəyini bildirib.

Parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Azərbaycan Respublikasının Orta Kür kontrakt sahəsi üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "ExxonMobil Exploration Production Azerbaijan Limited" şirkəti və "Middle Kura" MMC arasında Saziş"in qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə" qanun layihəsinə dair məlumat verib.

Nəzərə çatdırılıb ki, Saziş 26 sentyabr 2026-cı ildə Bakı şəhərində keçirilmiş II Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda imzalanıb. Qeyd edilib ki, Azərbaycanda qeyri-ənənəvi karbohidrogen ehtiyatlarının kəşfiyyatı üzrə ilk layihə olan bu təşəbbüs ExxonMobil-in qabaqcıl texnologiya və təcrübəsi əsasında ölkənin resurs bazasının genişləndirilməsi və hasilatın artırılması üçün yeni imkanlar yaradır. Layihənin icrasının texnologiya və biliklərin yerli mütəxəssislərə ötürülməsinə, yeni iş yerlərinin yaradılmasına, yerli biznesin və infrastrukturun inkişafına, bütövlükdə regionların sosial-iqtisadi tərəqqisinə töhfə verəcəyi söylənilib.

Bildirilib ki, Saziş Orta Kür Kontrakt Sahəsində Qeyri-ənənəvi Ehtiyatların kəşfiyyatı və işlənməsi üçün hüquqi və kommersiya şərtlərini müəyyən edir. Sazişə əsasən ətraf mühitin mühafizəsi qeyd olunan şərtlər nəzərə alınmaqla qanunvericiliyə, beynəlxalq neft-qaz sənayesində qəbul edilmiş müsbət təcrübəyə və müəyyən edilmiş ekoloji standartlara uyğun təmin edilir.

Sənəd barədə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov təmsil etdiyi komitənin müsbət rəy verdiyini diqqətə çatdırıb.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Milli Məclisin spikeri növbəti məsələnin Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi olduğunu deyib. O, layihədə təklif olunan dəyişikliklərin uyğunlaşdırma xarakteri daşıdığını və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə uyğun olaraq bir oxunuşda qəbul ediləcəyini söyləyib.

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bu qanun layihəsini təqdim edib. Bildirilib ki, layihə "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanuna edilmiş dəyişikliklərlə bağlıdır. Həmin dəyişikliklərə əsasən istehsalat təcrübəsi (təlimi) keçən tələbə və şagirdlərin, könüllülərin müəyyən edilmiş qaydada icbari sığorta olunması nəzərdə tutulur. Eyni zamanda Dövlət Əməyin Mühafizəsi Fondunun maliyyə mənbələri siyahısına istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanı həyata keçirən sığortaçıların könüllü ödəmələri də daxil edilir. Bunu nəzərə alaraq Əmək Məcəlləsinin 208-ci və 221-ci maddələrinə uyğunlaşdırma xarakterli müvafiq dəyişikliklər təklif olunur.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Daha sonra iclasda Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş), Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) və "Elektron ticarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələri təsdiq olunub.

Spiker bildirib ki, gündəliyin qalan dörd məsələsi birinci oxunuşda olan qanun layihələridir. O, yeddinci məsələ olan Mülki Məcəllədə, Vergi Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumat vermək üçün İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanova söz verib.

Komitə sədri bildirib ki, qanun layihəsi hüquqi şəxsin ləğv zamanı müvafiq elektron informasiya sistemində işəgötürənlə bağlanmış əmək müqaviləsinə xitam verilməsinin tənzimlənməsi məqsədilə hazırlanıb. Belə ki, hüquqi şəxs ləğv edildiyi üçün həmin hüquqi şəxsin adından elektron informasiya sistemində əməliyyatların aparılması mümkün olmur. Eyni hal fiziki şəxs olan işəgötürən vergi uçotundan çıxarıldığı hallarda da baş verir. Beləliklə, təklif olunan tənzimləməyə əsasən, hüquqi şəxslərin ləğvi və vergi uçotundan çıxarılması yalnız onların işçiləri ilə əmək müqaviləsinə xitam verildikdə mümkün hesab ediləcək.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məsələ ilə bağlı təmsil etdiyi komitənin müsbət rəyini diqqətə çatdırandan sonra qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Mülki Məcəllədə və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Azər Badamov məlumat verib. Qeyd edib ki, layihə "Torpaq islahatı haqqında" qanuna uyğun olaraq vətəndaşlara verilmiş, lakin onların mülkiyyət hüququnun rəsmiləşdirilmədiyi həyətyanı torpaq sahələri ilə bağlı məsələnin tənzimlənməsini nəzərdə tutur. Qanun layihəsinə əsasən, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin ləğv edildiyi 2015-ci il fevralın 6-dək olan dövrdə "Torpaq islahatı haqqında" qanuna uyğun olaraq vətəndaşların mülkiyyətinə verilmiş həyətyanı torpaq sahələrinə dair tərtib edilmiş plan-ölçü sənədi həmin torpaq sahələri üzərində mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması üçün əsas kimi müəyyən edilir. Bununla da, eyni hüquqi əsaslarla torpaq sahələri əldə etmiş, lakin müxtəlif sənədlərlə təmin olunmuş vətəndaşlar arasında hüquqi vəziyyətin eyniləşdirilməsi və mülkiyyət hüquqlarının dövlət qeydiyyatı üçün hüquqi əsasın yaradılması təmin edilir.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli layihə ilə bağlı komitəsinin müsbət rəyini açıqlayıb.

Sənədin müzakirəsində parlamentin komitə sədri Zahid Oruc, deputatlar Müşfiq Məmmədli, Bəxtiyar Əliyev və Aydın Hüseynov çıxış ediblər, dəyişikliklər barədə fikirlərini bildiriblər.

Qanun layihəsi birinci oxunuşda qəbul olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Badamov növbəti məsələ olan "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" və "Texniki tənzimləmə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatında isə bildirib ki, dəyişikliklər texniki reqlamentlərə dair tələblərin təkmilləşdirilməsi və malların təhlükəsizliyinin qiymətləndirilməsi qaydalarının daha dəqiq müəyyənləşdirilməsi məqsədi daşıyır. Layihəyə əsasən, malların insanların həyat və sağlamlığına, ətraf mühitə, əmlaka və dövlətin maraqlarına yarada biləcəyi risklər elmi və texniki məlumatlar əsasında qiymətləndiriləcək, təhlükəsizlik tələbləri isə həmin qiymətləndirmənin nəticələrinə uyğun müəyyənləşdiriləcəkdir. Eyni zamanda mallara uyğunluq sertifikatının və ya uyğunluq bəyannaməsinin tələb olunması da onların təhlükəlilik dərəcəsi nəzərə alınmaqla texniki reqlamentlərdə müəyyən ediləcək.

Qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Gündəliyin sonuncu məsələsi olan "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) də komitə sədrinin müavini Azər Badamov təqdim edib. O bildirib ki, layihə məhkəməyə müraciət edən şəxslərin dövlət rüsumu ilə bağlı xərclərinin azaldılmasını və məhkəmə işlərinə operativ baxılmasını nəzərdə tutur. Dəyişikliklərdə məhkəmə əmri haqqında ərizənin verilməsinə görə dövlət rüsumunun məbləğinin 100 manatdan azaldılaraq 25 manat müəyyən edilməsini, eləcə də qiymətləndirilən iddialar üzrə apellyasiya, kassasiya və əlavə kassasiya şikayətlərinin verilməsinə görə müəyyən edilən dövlət rüsumunun həddinin iddianın yalnız mübahisələndirilən hissəsi ilə məhdudlaşdırılmasını təklif edir.

Qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Rəşad CƏFƏRLİ,
"Azərbaycan"

Milli Məclisin Sədri Sahibə Qafarova Slovakiyanın baş prokuroru ilə görüşüb



Noyabrın 27-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Slovakiyanın baş prokuroru Maroş Jilinkanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri bu səfərin Azərbaycan və Slovakiya prokurorluq orqanları arasında, ümumilikdə isə ölkələrimizin əlaqələrinin inkişafına öz töhfəsini verəcəyinə inamını bildirib.

2021-ci ildə Slovakiyaya rəsmi səfərini xatırlayan spiker Sahibə Qafarova bunun Azərbaycan Milli Məclisi Sədrinin Slovakiyaya ilk səfəri olduğunu qeyd edib.

Spiker iki ölkə arasında əlaqələrin qurulmasından keçən illər ərzində münasibətlərimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini və 2024-cü ildə imzalanmış Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin bunun üçün əsaslı zəmin yaratdığını diqqətə çatdırıb.

İkitərəfli əlaqələrin güclənməsində ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin müstəsna rolundan danışan spiker Sahibə Qafarova, Prezident İlham Əliyevin 2025-ci ilin dekabrında Slovakiyaya rəsmi səfərinin Azərbaycan Prezidentinin Slovakiyaya ilk səfəri kimi tarixi əhəmiyyət daşıdığını vurğulayıb. Həmçinin bildirilib ki, Slovakiya Prezidenti Peter Pellegrininin cari ilin iyul ayında ölkəmizə rəsmi səfəri əlaqələrimizin möhkəmlənməsinə yeni impuls verib.

Söhbət zamanı diqqətə çatdırılıb ki, iki ölkənin parlamentləri arasında da fəal və məhsuldar əməkdaşlıq mövcuddur. Mütəmadi olaraq parlament sədrləri və nümayəndə heyətləri səviyyəsində qarşılıqlı səfərlər həyata keçirilir. Cari ilin may ayında imzalanmış Anlaşma Memorandumu parlamentlərarası əlaqələrimizi yeni səviyyəyə qaldırıb.

Görüşdə ölkələrimiz arasında müqavilə-hüquq bazasının daha da genişləndirilməsi, iqtisadi, humanitar sahələrdə əlaqələrin inkişafı, həmçinin birbaşa aviareyslərin fəaliyyətə başlaması mühüm addımlar kimi dəyərləndirilib. Bildirilib ki, Slovakiyanın Qarabağın bərpasında iştirakı, "Ağıllı kənd" layihəsinin həyata keçirilməsi və Ağdamın Baş Qərvənd kəndində Milan RastislavŞtefanik adına məktəbin bünövrəsinin qoyulması ölkəmizdə yüksək qiymətləndirilir.

Qonaqpərvərliyə görə təşəkkürünü bildirən Slovakiyanın baş prokuroru Maroş Jilinka ölkəmizə səfəri barədə xoş təəssüratlarını bölüşüb.

İki ölkənin prokurorluq orqanları arasında əlaqələrin inkişafından söz açan qonaq Azərbaycan Baş Prokurorluğu ilə əməkdaşlığın perspektivlərindən danışıb. O qeyd edib ki, iki ölkənin Baş prokurorluqları arasında imzalanmış əməkdaşlıq proqramı iki ölkənin prokurorluq orqanları arasında əlaqələrin dinamikasını daha da artıracaq.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

"Azərbaycan"

Özbəkistan Ali Məclisinin nümayəndə heyətinin ölkəmizə səfəri başa çatıb

Xəbər verdiyimiz kimi, Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayevanın başçılıq etdiyi parlament nümayəndə heyəti ölkəmizdə səfərdə olub.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyəti Milli Məclisdə keçirilən və "Azərbaycan-Özbəkistan əbədi dostluq və müttəfiqlik münasibətlərinin parlament ölçüsü: əməkdaşlıq istiqamətləri və gələcək perspektivlər" mövzusuna həsr olunmuş İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumunda iştirak edib.

Forum çərçivəsində Azərbaycan Respublikası Milli Məclisi ilə Özbəkistan Respublikası Ali Məclisi arasında "Parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi üzrə 2027-2028-ci illər üçün praktiki tədbirlər planı" ("Yol xəritəsi") imzalanıb. Həmçinin hər iki parlamentin spikerlərinin iştirakı ilə Milli Məclis və Özbəkistan Ali Məclisi Parlamentlərarası Əməkdaşlıq Komissiyasının birinci iclası keçirilib.

Tənzilə Narbayeva və onun başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə səfərini başa vuraraq vətəninə yola düşüb.

"Azərbaycan"

Azərbaycan ilə BMT arasında "yaşıl keçid" istiqamətində birgə fəaliyyət imkanları nəzərdən keçirilib

İqtisadiyyat naziri Mikayıl Cabbarov BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Dmitro Şlapaçenko ilə görüşüb.



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə BMT arasında 30 ildən artıq davam edən tərəfdaşlığın DİM-lərin icrasına verdiyi töhfə qeyd olunub. 2025-ci il oktyabrın 24-də imzalanmış Əməkdaşlıq Çərçivə Sənədinin icrasının ilk ilində həyata keçirilmiş tədbirlər nəzərdən keçirilib.

Həmçinin Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) lokallaşdırılması istiqamətində görülən işlər qeyd olunub. Bildirilib ki, pilot ərazilər kimi seçilmiş Şuşa şəhəri və Naxçıvan Muxtar Respublikası üzrə 2027-2028-ci illər üçün Yol xəritələrinin layihələri hazırlanıb. Azərbaycanın DİM-lərin icrasına dair beşinci Könüllü Milli Hesabatının 2027-ci ildə BMT-nin Yüksək Səviyyəli Siyasi Forumunda təqdim ediləcəyi diqqətə çatdırılıb.

Tərəflər "yaşıl iqtisadiyyat"a keçid, rəqəmsal transformasiya, kiçik və orta sahibkarlığın dəstəklənməsi, insan kapitalının inkişafı sahələrində birgə layihələrin həyata keçirilməsi imkanlarını müzakirə ediblər.

Büdcə zərfinə daxil olan məsələlər ikinci oxunuşda müzakirə edildi

Noyabrın 27-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Azər Əmiraslanov bildirib ki, gündəliyə daxil edilən 13 məsələnin 8-i 2027-ci ilin dövlət büdcə zərfinə daxil olan layihələrdir.



Gündəliyin ilk 8 məsələsini - "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" (ikinci oxunuş), "Dövlət sosial müdafiə fondunun 2027-ci il büdcəsi haqqında" (ikinci oxunuş), "İşsizlikdən sığorta fondunun 2027-ci il büdcəsi haqqında" (ikinci oxunuş), "Azərbaycan Respublikasında 2027-ci il üçün yaşayış minimumu haqqında" (ikinci oxunuş), "Azərbaycan Respublikasında 2027-ci il üçün ehtiyac meyarının həddi haqqında" (ikinci oxunuş), Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda, Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə, "Pasportlar haqqında", "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Müflisləşmə və iflas haqqında", "Yol hərəkəti haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Notariat haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Baytarlıq haqqında", "Fitosanitar nəzarəti haqqında" və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (ikinci oxunuş), Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Seçki Məcəlləsində, Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində, "Hərbi qulluqçuların statusu haqqında", "Azərbaycan Respublikasında vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Həmkarlar ittifaqları haqqında", "Sosial sığorta haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Yaşayış minimumu haqqında", "Sosial müavinətlər haqqında", "Təhsil haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Məktəbəqədər təhsil haqqında", "İşsizlikdən sığorta haqqında", "Ümumi təhsil haqqında", "Siyasi partiyalar haqqında", "Diplomatik xidmət haqqında" və "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (ikinci oxunuş), Azərbaycan Respublikasının Meşə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Yerin təki haqqında", "Tullantılar haqqında", "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Tibbi sığorta haqqında", "Avtomobil yolları haqqında", "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Büdcə sistemi haqqında", "Dövlət borcu haqqında", "Gömrük tarifi haqqında", "Yaşıllıqların mühafizəsi haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Hesablama Palatası haqqında", "Dövlət satınalmaları haqqında" və "Balıqçılıq haqqında" (ikinci oxunuş) Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələrini maliyyə nazirinin müavini Himalay Məmişov təqdim edib. Bildirilib ki, növbəti ilin dövlət büdcəsinin əsas makroiqtisadi göstəriciləri öz aktuallığını qoruyub saxlayacaq. Belə ki, ümumi daxili məhsulun (ÜDM) real ifadədə 2,7 faiz artaraq 141 milyard manata, qeyri-neft sektoru üzrə ÜDM-in isə 4,4 faiz artımla 109,1 milyard manata çatacağı proqnozlaşdırılır. O, büdcənin müsbət xarakterik cəhətlərini qoruyub saxladığını, eyni zamanda neftdən asılılığın azaldılması istiqamətində meyillərin davam etdiyini deyib.

Qeyd edilib ki, ƏDV, aksiz və sadələşdirilmiş vergi üzrə proqnoz göstəriciləri azaldılaraq hüquqi şəxslərin mənfəət vergisi üzrə proqnozlara əlavə olunur. Həmçinin dövlət rüsumları üzrə daxilolmaların proqnozu azaldılaraq fiziki şəxslərin gəlir vergisi üzrə proqnoz göstəricilərinə yönəldilir. Bununla yanaşı, Hesablama Palatasının tövsiyələri nəzərə alınaraq, hüquqi şəxslərin torpaq vergisi və səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlərlə bağlı anlayışlar dəqiqləşdirilib. Müvafiq olaraq, "torpaq vergisi" və "dövlət müəssisələrindən alınan dividendlər" ifadələri əks olunub. Bu dəyişikliklərin bir sıra qanunlarda mövcud olan uyğunsuzluqların aradan qaldırılmasına xidmət etdiyi vurğulanıb.

Daha sonra Hesablama Palatasının sədr müavini Nəsir Sadıqov çıxış edərək, həm komitə iclaslarında, həm də plenar iclasda büdcə ilə bağlı Hesablama Palatasının rəyi əsasında qanun layihələrinə edilən müvafiq dəyişikliklər barədə fikirlərini bildirib.

Qanun layihələri ilə bağlı komitənin üzvü Əli Məsimli çıxış edərək təklif və fikirlərini səsləndirib. İqtisadiyyat nazirinin müavini Azər Bayramov deputatın qaldırdığı məsələlərə aydınlıq gətirib.

Gündəliyin 9-cu məsələsi - Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini İqtisadiyyat Nazirliyi Dövlət Vergi Xidmətinin Hüquq baş idarəsinin rəisi vəzifəsini icra edən Elşad Mirqasımov birinci oxunuşda təqdim edib. Qeyd edilib ki, qanun layihəsində edilən dəyişikliklərə əsasən Çağrı Mərkəzinin Dövlət Vergi Xidmətinin strukturunda fəaliyyət göstərməsi və vergi sirri təşkil edən məlumatların əldə edilməsinin Məcəllənin 30.4-cü maddəsi ilə tənzimlənməsi nəzərə alınaraq, müvafiq normanın ləğvi təklif olunur.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Hüquq şöbəsinin müdiri Novruz Orucov Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) dair məlumat verib. Bildirilib ki, dəyişikliklər elektron əmtəə-nəqliyyat qaiməsi olmadan yük daşınmasına nəzarətin gücləndirilməsi və bu hallara görə maliyyə sanksiyalarının tətbiqini, beynəlxalq yükdaşıma fəaliyyəti ilə məşğul olan şəxslər üçün vergi güzəştlərinin verilməsini, habelə müvafiq nəqliyyat vasitələrinin idxalının ƏDV və gömrük rüsumundan azad edilməsini nəzərdə tutur. Dəyişikliklərin əsas məqsədi yükdaşıma sektorunda şəffaflığın artırılması, milli daşıyıcıların rəqabət qabiliyyətinin yüksəldilməsi və nəqliyyat parkının yenilənməsidir.

Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə məlumat verən komitə sədri Azər Əmiraslanov dəyişikliklərin dəqiqləşdirmə xarakteri daşıdığını bildirib. Qeyd edilib ki, dəyişiklik dövlətin xeyrinə imtina edilmiş mallara görə yalnız gömrük rüsumları və vergilərin deyil, bütövlükdə gömrük ödənişlərinin alınmamasını nəzərdə tutaraq, müvafiq normanın dəqiqləşdirilməsinə xidmət edəcək.

Gündəliyin 12-ci məsələsi - Azərbaycan Respublikasının Su Məcəlləsində, Azərbaycan Respublikasının Meşə Məcəlləsində, "Meliorasiya və irriqasiya haqqında", "Əhalinin radiasiya təhlükəsizliyi haqqında", "Yerin təki haqqında", "Tullantılar haqqında", "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Su təchizatı və tullantı suları haqqında", "Dəniz limanları haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Turizm haqqında", "Elektroenergetika haqqında", "Qaz təchizatı haqqında" və "Balıqçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) haqqında Milli Məclisin İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov məlumat verib. O qeyd edib ki, qanun layihəsi Espo Konvensiyasının tələblərinə uyğun olaraq ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) prosesinin təkmilləşdirilməsini, qiymətləndiricilərin ixtisaslaşmasını, attestasiya prosedurlarının yenilənməsini və müstəqil fəaliyyət imkanlarının genişləndirilməsini nəzərdə tutur. Həmçinin transsərhəd təsirlərin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin artırılması məqsədilə qeyd olunan məcəllələrdə, eləcə də 12 qanunda müvafiq dəyişikliklər edilir.

Gündəliyin sonuncu məsələsi - "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsini komitənin üzvü Zaur Şükürov təqdim edib. Bildirilib ki, saziş Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında beynəlxalq avtomobil sərnişin və yük daşımalarının təşkili və tənzimlənməsi, tranzit daşımalarının asanlaşdırılması, daşımalar üçün icazə prosedurlarının və şərtlərinin müəyyən edilməsi, habelə tərəflərin səlahiyyətli orqanları arasında əməkdaşlığın təmin olunmasını nəzərdə tutur. Bununla belə, saziş həmçinin daşımaların təhlükəsizliyi, vergi və rüsumlarla bağlı məsələləri, daşıyıcıların hüquq və öhdəliklərini tənzimləyir.

Qanun layihələrinin hamısı Milli Məclisin plenar iclasına tövsiyə olunub.

"Azərbaycan"

Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2026-cı ilin dekabr ayında vətəndaşların qəbulu CƏDVƏLİ

Vəzifəli şəxs	Qəbul günü
Əli Cavad oğlu ƏHMƏDOV Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini	4
Ziyafət Abbas oğlu ƏSGƏROV Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini	9
Musa Cəfər oğlu QASIMLI Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini	10
Rafael Baba oğlu HÜSEYNOV Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini	15
Əli Məhəmməd oğlu HÜSEYNLİ Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri	3
Arzu Nəsib oğlu NAĞIYEV Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri	11
Zahid Məhərrəm oğlu ORUC Milli Məclisin İnsan hüquqları komitəsinin sədri	16
Sadiq Haqverdi oğlu QURBANOV Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri	2
Azər Kamal oğlu ƏMİRASLANOV Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri	22
Tahir Musa oğlu RZAYEV Milli Məclisin Aqrar siyasət komitəsinin sədri	8
Musa İsa oğlu QULİYEV Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri	14
Əhliman Tapdıq oğlu ƏMİRASLANOV Milli Məclisin Səhiyyə komitəsinin sədri	21
Hicran Kamran qızı HÜSEYNOVA Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri	7
Şahin Əmir oğlu İSMAYILOV Milli Məclisin Gənclər və idman komitəsinin sədri	28
Fazil Qəzənfər oğlu MUSTAFA Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri	25
Siyavuş Dünyamalı oğlu NOVRUZOV Milli Məclisin Regional məsələlər komitəsinin sədri	24
Anar Camal oğlu İSGƏNDƏROV Milli Məclisin Elm və təhsil komitəsinin sədri	17
Polad BÜLBÜLOĞLU Milli Məclisin Mədəniyyət komitəsinin sədri	23
Səməd İsmayıl oğlu SEYİDOV Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri	18
Eldar Rza oğlu İBRAHİMOV Milli Məclisin İntizam komissiyasının sədri	8
Fərid Famil oğlu HACIYEV Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri	1
Firudin Süleyman oğlu HACIYEV Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdiri	11
Hacı Mirhəşim Miryaqub oğlu SEYİD Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri	24
Məhəmməd İmran oğlu BAZIQOV Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri	28
Adil İsrayıl oğlu VƏLİYEV Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri	29
Şakir Himalay oğlu ŞABANOV Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri	21
Ayan Zəfər qızı MURTUZOVA Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri	7

Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Qəbul otağında qəbul olunur.

Ünvan: Bakı şəhəri, Parlament prospekti 1.

"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərini təmin etmək məqsədi ilə;

Qəbul vaxtı: saat 14:00-dan başlayır.

Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.

Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.

Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim edir.

Telefonlar: (012) 510-99-38; (012) 510-89-14; (012) 492-74-05

Dünyanın diqqəti Azərbaycandadır

Hanoydan Vaşinqtona, Berlindən Romaya uzanan diplomatik təmaslar Bakının beynəlxalq münasibətlər sistemindəki fəal rolunu nümayiş etdirir

Bu gün Azərbaycan milli maraqlarını təmin edərək regionda proseslərin axarını sülhə istiqamətləndirən və qlobal güclərin hesablaşdığı aparıcı dövlət kimi tanınır. Ölkəmizin əldə etdiyi bu güclü mövqeni Azərbaycan diplomatiyasının təkcə noyabrın 17-dən 25-dək olan doqquz günlük zaman kəsiyindəki intensivliyində də aydın müşahidə etmək mümkündür. Müxtəlif qitələri təmsil edən yüksəksəviyyəli rəsmilərin Bakıya səfərləri, Cənub-Şərqi Asiyaya uzanan rəsmi marşrut və imzalanan strateji sənədlər ölkəmizin beynəlxalq nüfuzunun növbəti təntənəsinə çevrildi. Prezident İlham Əliyevin bu qısa müddətdəki diplomatik qrafiki sübut etdi ki, həm qlobal güc mərkəzlərinin maraqları Bakıda uzlaşır, həm də mühüm beynəlxalq proseslərin axarı paytaxtımızda formalaşır.

Bakıdan Cənub-Şərqi Asiyaya

Noyabrın 17-də həm Avropanın aparıcı ölkələrindən sayılan Almaniyanın xarici işlər naziri Yohan David Vadeful, həm də qonşu Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvili Bakıda Prezident İlham Əliyevin qəbulunda oldular. Almaniya rəsmisi ilə müzakirələrdə Azərbaycan qazının artıq bu ölkəyə ixracı və Biznes Şurasının fəaliyyəti gündəmə gəldi, Gürcüstan təmsilçisi ilə söhbətdə isə Orta dəhliz və enerji layihələri masada müzakirə mövzusu oldu. Yəni Bakı eyni gündə həm Avropanın mərkəzi ilə strateji gündəliyini yenilədi, həm də yaxın qonşusu ilə regional sabitliyin təməlini möhkəmləndirdi.

Almaniya xarici işlər naziri Yohan David Vadefulla görüşdə ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, siyasi, iqtisadi, sərmayələr, biznes, ənənəvi və alternativ enerji, bağlantılar, nəqliyyat, logistika, turizm və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi. Ölkəmizin Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verdiyi, bu ildən başlayaraq Azərbaycan qazının Almaniyaya ixracı qeyd olundu.

Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvili Prezident İlham Əliyevin qəbulunda olarkən, Azərbaycanla Gürcüstanın birgə həyata keçirdiyi enerji və nəqliyyat layihələrinin daha geniş region üçün mühüm əhəmiyyət kəsb etdiyi vurğulandı.

İki gün sonra isə Prezident İlham Əliyevin diplomatik marşrutu Cənub-Şərqi Asiyaya yönəldi. Noyabrın 19-21-də Vyetnama rəsmi səfər, Hanoyda Prezident To Lam ilə qəbul edilən Birgə Bəyanat, iki ölkə arasında imzalanmış sənədlər göstərdi ki, Azərbaycanın diplomatiyası coğrafi sərhəd tanımır. Avropa ilə dərin əməkdaşlıq quran Bakı, Asiyanın sürətlə yüksələn gücü ilə də eyni səmimiyyət və bərabərhüquqlu tərəfdaşlıq əlaqələrini möhkəmləndirir.

Hanoy səfərindən dərhal sonra, noyabrın 22-də Bakıda ABŞ-nin daxili təhlükəsizlik naziri Markveyn Mullin qarşılandı. Bu görüşdə səslənən fikirlər iki ölkənin əlaqələrinin hazırkı ən yüksək səviyyəsinə bir daha işıq tutdu. 2026-cı ilin Azərbaycan-ABŞ münasibətlərində "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanması ilə tarixə düşməsi, 2025-ci ilin avqustunda Vaşinqton Sammitində imzalanan Birgə Bəyannamədən, sülh mətninin paraflanmasından və kommunikasiyaların açılması ilə bağlı əldə olunan razılaşmalardan sonra regionda sülh mühitinin hökm sürməsi kimi faktlar onu göstərir ki, okeanın o tayında da Bakının yaratdığı yeni reallıqlar tam dəstəklənir.

Xatırladaq ki, Vaşinqton razılaşmalarının məntiqi davamı olaraq, noyabrın 23-də "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP) praktiki icrasına rəsmi start verilib.

Layihənin rəsmi başlanğıcına həsr olunmuş videomüraciətində ABŞ Prezidenti Donald Tramp Prezident İlham Əliyevə Vaşinqtonla əməkdaşlığa, sülh gündəliyinin irəlilədilməsinə və layihənin reallaşmasına verdiyi töhfələrə görə təşəkkürünü ifadə edib. Öz növbəsində Prezident İlham Əliyev "X" hesabında ABŞ Prezidentinin təşəkkür mesajına cavab verib: "Hörmətli Prezident Donald Tramp, Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu (TRIPP) layihəsinin başlanması münasibətilə mənə ünvanladığınız xoş sözlərə görə səmimi minnətdarlığımı bildirmək istəyirəm".

Avropa istiqaməti üzrə intensiv təmaslar

Növbəti günlərdə isə Bakının diplomatik gündəliyini Avropa istiqaməti üzrə intensiv təmaslar zənginləşdirdi. Noyabrın 23-də İtaliya Nazirlər Şurası Sədrinin müavini, xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Antonio Tayani, noyabrın 24-də Monteneqronun Baş naziri Miloyko Spayiç və Gürcüstanın Baş nazirinin müavini, xarici işlər naziri Maka Boçorişvili, noyabrın 25-də isə Litva xarici işlər naziri Kestutis Budris Bakıda Prezident İlham Əliyevin qəbulunda oldular.

Antonio Tayani ilə görüşdə dövlətimizin başçısı ölkələrimiz arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannaməyə toxunaraq, Azərbaycanla İtaliyanın yaxşı tərəfdaşlıq qurduqlarını, dostluğa əsaslanan əlaqələrimizin uğurla inkişaf etdiyini dedi.

Nazir Azərbaycanın İtaliya üçün regional sabitlik baxımından çox əhəmiyyətli ölkə olduğunu dedi, İtaliyanın Azərbaycan-Avropa İttifaqı və Azərbaycan-NATO münasibətlərinin inkişafına töhfə verməyə hazır olduğunu qeyd etdi.

Görüşdə Azərbaycanın nəqliyyat bağlantıları baxımından strateji rolunun artdığı vurğulandı, bölgədə gedən proseslərə, o cümlədən Azərbaycan-Ermənistan normallaşma prosesinə və TRIPP layihəsinə toxunuldu.

Monteneqronun Baş naziri Miloyko Spayiç Azərbaycanın ölkəsinə böyük sərmayələr yatırdığını deyərək, bunun iqtisadiyyatlarına müsbət təsir göstərdiyini bildirdi.

Litva xarici işlər naziri Kestutis Budris səfər çərçivəsində "Azərbaycan Respublikası və Litva Respublikası arasında Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə"nin imzalanacağını bildirdi, iqtisadiyyat, ticarət və nəqliyyat sahələrində əlaqələrin dərinləşdirilməsinin vacibliyini vurğuladı. O, Litvanın 2027-ci il yanvarın 1-dən Avropa İttifaqı Şurasına sədrlik edəcəyini bildirərək ölkəsinin Azərbaycan-Avropa İttifaqı münasibətlərinin inkişafına dəstəyini davam etdirəcəyini vurğuladı.

Gürcüstan XİN rəhbəri Maka Boçorişvili ilə söhbətdə isə Prezident İlham Əliyev regional məsələlərdə hər zaman inklüziv yanaşmanın olmasının vacibliyini vurğuladı. Bu xüsusda Azərbaycanın və Gürcüstanın regionda birgə səylərlə həyata keçirdiyi Orta dəhliz layihəsinin artıq funksional olduğu vurğulandı və bu xətlə daşımaların mütəmadi əsasda artdığı bildirildi.

Bütün bu diplomatik hərəkətliliyin ən mühüm səbəbi Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı sülh mühitidir. Almaniyadan Vyetnama, ABŞ-dən İtaliyaya, Monteneqrodan Litvaya qədər fərqli qütblərin Bakı ilə əlaqələrə böyük əhəmiyyət verməsi bir mətləbdən xəbər verir: dünya siyasətində sözünə güvənilən, verdiyi vədi yerinə yetirən və böhranların içindən çıxış yolu tapan liderlərə həmişə ehtiyac duyulur. Bu mənada Prezident İlham Əliyevin cəmi doqquz günlük iş qrafiki də sübut edir ki, Azərbaycan artıq yerləşdiyi regionun - Cənubi Qafqazın taleyini yazan və qlobal proseslərin istiqamətini müəyyən edən əsas güc mərkəzlərindən biridir.

Yasəmən MUSAYEVA,
"Azərbaycan"

Prezident İlham Əliyevin formalaşdırdığı təkmil siyasi konfiqurasiya

Ölkəmiz yeni strateji mərhələdə böyük milli hədəflərinə doğru inamla irəliləyərək tarixin ən qüdrətli Azərbaycanı kimi dövlətçilik salnaməsinin yeni şərəf səhifələrini yaradır. Əsrlər boyu xalqımızın milli idealı olan ərazi bütövlüyümüzün, dövlət suverenliyimizin Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin liderliyi və qalib ordumuzun gücü ilə bərpası bu salnamənin ən böyük qürur məqamıdır.



Azərbaycan həm də mütərəqqi təcrübələrini dünyaya ixrac edir

Azərbaycan dövlətinin son onilliklərdə qazandığı uğurlar yalnız hərbi-siyasi Zəfərimizlə məhdudlaşmır. Son illərdə dövlətimiz yeni idarəetmə və inkişaf modelləri yaradan, həmin modelləri dünyaya təqdim edən ölkəyə çevrilmişdir. Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu dövlətçilik konsepsiyasının Prezident İlham Əliyev tərəfindən dövrün çağırışlarına uyğun şəkildə inkişaf etdirilməsi nəticəsində formalaşan milli inkişaf modeli artıq beynəlxalq səviyyədə uğurlu idarəetmə nümunəsi kimi qəbul olunmaqdadır.

Son illərin qlobal maraq doğuran ən mühüm örnəyi, cənab İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyimiz tarixi Zəfərimizdir. Müzəffər Ali Baş Komandanın "dəmir yumruğ"unun nəticəsi beşinci nəsil müharibənin, müasir hərb tarixinin ən mükəmməl nümunəsi kimi bu gün bütün dünyada qəbul olunur, müxtəlif hərbi ekspertlər və tədqiqat mərkəzləri tərəfindən öyrənilir.

Dövlətimizin iqtisadi inkişaf strategiyası, yüksək sosial rifah üçün yürütdüyü siyasət, uğurla tətbiq etdiyi rəqəmsal dövlət idarəçiliyi, vətəndaş məmnunluğunu əsas prioritetə çevirən institusional islahatları da bir çox ölkə üçün diqqətlə öyrənilən parlaq təcrübədir. Xüsusilə "ASAN xidmət" modeli, DOST mərkəzləri və bu kimi digər layihələr dövlət-vətəndaş münasibətlərinin yeni fəlsəfəsini formalaşdıraraq dünyanın müxtəlif ölkələrində maraq doğurmuş, beynəlxalq təşkilatlar tərəfindən uğurlu innovativ idarəetmə nümunələri kimi qiymətləndirilmiş, başqa ölkələrdə də bu cür həllərin tətbiqinə başlanmışdır. Bu reallıq onu göstərir ki, Azərbaycan artıq yalnız beynəlxalq təcrübəni öyrənən yox, özü yeni mütərəqqi təcrübələr yaradıb ixrac edən dövlətlər sırasındadır.

Azərbaycanın dünyaya təqdim etdiyi uğurlu modellər bununla tamamlanmır. Təqdirəlayiq haldır ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu və cənab İlham Əliyevin xüsusilə post-savaş dövründə yeni mərhələyə yüksəltdiyi siyasi konfiqurasiya modeli də bütün dünyada örnək kimi qəbul olunmaqdadır.

Siyasi konfiqurasiyanın Azərbaycan modeli dünyada mükəmməl örnək kimi qəbul olunur

Prezident İlham Əliyevin geniş vizyonla, gələcəyə aydın strateji baxışla apardığı siyasət ölkəmizdə müasir siyasi münasibətlər sisteminin formalaşmasına, milli həmrəyliyin möhkəmlənməsinə və yeni siyasi konfiqurasiyanın yaranmasına gətirib çıxarmışdır. Cənab Prezidentin siyasi islahatlar strategiyasında siyasi konfiqurasiyasının yeni mərhələdə təşəkkülü əsas məqsədlərdən biri kimi qəbul olunmuşdu. Bu sahədə dövlət başçısının təşəbbüslərinin mühüm icraçısı və proseslərin əsas koordinatoru olaraq Prezident Administrasiyasında 2019-cu ildə Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi yaradılmışdı.

Yeni siyasi konfiqurasiyaya keçid mərhələsinə dövlət tərəfindən çox həssas yanaşılması, qarşı tərəfə səmimi münasibət bəslənilməsi, onların fikirlərinə və rəylərinə önəm verilməsi adekvat müsbət nəticə vermişdi. Xüsusilə Vətən müharibəsində qazanılmış tarixi Zəfərimizdən sonrakı reallıqlar dövründə Azərbaycanda formalaşan yeni siyasi mühit göstərdi ki, milli məsələlərdə siyasi həmrəylik, məsuliyyətli siyasi davranış və dövlət maraqlarının üstün tutulması güclü dövlət quruculuğunun nə qədər əhəmiyyətli tərkib elementidir. Dövlətlə cəmiyyət arasında qarşılıqlı etimadın güclənməsi, siyasi dialoqun institusional xarakter alması, siyasi partiyaların milli maraqlar ətrafında məsuliyyətli mövqe nümayiş etdirməsi Azərbaycanda yeni siyasi münasibətlər sisteminin artıq dayanıqlı şəkildə qurulduğunu və uzunmüddətli perspektivdə mühüm müsbət təsirlər yaratdığını göstərir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə formalaşan yeni siyasi konfiqurasiya bu gün təkcə Azərbaycanın daxili inkişafına xidmət etmir, eyni zamanda beynəlxalq ekspertlər tərəfindən müasir siyasi idarəetmənin uğurlu modellərindən biri kimi maraqla öyrənilir və müzakirə olunur. Bu baxımdan, müvafiq model ölkəmizdə, cəmiyyətimizdə daxili siyasi sabitliyi təmin edən mexanizm olmaqla yanaşı, həm də Azərbaycanın beynəlxalq nüfuzunu daha da yüksəldən, dövlətimizin milli maraqlarını daha effektiv müdafiə etməsinə imkan verən strateji idarəçilik konsepsiyasıdır.

Yeni siyasi konfiqurasiya yalnız siyasi partiyalar arasında əməkdaşlığın gücləndirilməsinə xidmət göstərmir, eyni zamanda bu model bütövlükdə dövlət idarəçiliyinin daha çevik, daha peşəkar və səmərəli fəaliyyət göstərməsini təmin edən institusional mexanizm kimi çıxış edir. Azərbaycan dövləti fərqindədir ki, cəmiyyətin demokratik inkişafı, həyata keçirilən inkişaf siyasətinin öz məqsədlərinə çatması, ölkə rəhbərliyinin qarşıya qoyduğu vəzifələrin yüksək keyfiyyətlə icrası, irəli sürülən təşəbbüslərin, verilən qərarların ictimai müzakirəsi üçün fərqli baxışlar, müxtəlif siyasi partiyaların alternativ rəyləri milli mənafeləri əsas götürən sağlam diskussiyalar çox vacibdir. Azərbaycanda formalaşan yeni siyasi konfiqurasiya ziddiyyətlərin diskussiya məcrasına yönəlməsində, cəmiyyətdə sağlam əhvalın yaranmasında mühüm rol oynayır və ümumi işə fayda verir.

Növbəti prioritet: təkmil siyasi sistem möhkəm təhlükəsizliyin zəminə çevrilir

Müasir dünyamızın geosiyasi mənzərəsi bu yanaşmanın nə qədər uzaqgörən olduğunu hər keçən gün daha aydın nümayiş etdirməkdədir. Dünyanın müxtəlif bölgələrində dövlətlərin daxili siyasi parçalanma səbəbindən zəifləməsi, cəmiyyətlərin qütbləşməsi, xarici təsirlərə qarşı müqavimət imkanlarının azalması və milli maraqların daxili siyasi mübarizə predmetinə çevrilməsi getdikcə daha ağır nəticələr doğurur. Bir çox halda dövlətlərin üzləşdiyi böhranların əsas səbəbinin iqtisadi və ya hərbi zəiflikdən daha çox, sağlam siyasi münasibətlər sisteminin olmamasından, milli məsələlərdə siyasi həmrəyliyin əldə edilməməsindən qaynaqlandığı dərhal nəzərə çarpır.

Əlbəttə, bu reallıqları qeyd edərkən, özümüzün də dövlət müstəqilliyimizin ilk illərində yaşadığımız oxşar durumu, başımıza gələn faciələri, ağrı-acıları unutmamalıyıq. Əgər 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdışı baş verməsəydi və bu böyük şəxsiyyət qısa müddətdə cəmiyyətin sağlam qüvvələrinin milli həmrəyliyinə nail olmasaydı, "Azərbaycanın müstəqilliyi hansı tale ilə üzləşərdi" sualına cavab tapmaq çox çətin olardı. Bu günsə eyni aqibəti bizim sərhəd qonşularımız da yaşayır, digər coğrafiyalardakı ölkələrin timsalında da bunu aydın şəkildə görürük və bu təcrübə göstərir ki, güclü dövlətin təməlində ilk növbədə güclü siyasi sistem və milli həmrəylik dayanmalıdır.

Bu amil həm də milli təhlükəsizliyin əsas komponentlərindəndir. Prezident İlham Əliyevin formalaşdırdığı yeni siyasi konfiqurasiya məhz bu strateji yanaşmaya əsaslanır. Bu model göstərir ki, milli maraqlar ətrafında formalaşmış siyasi birlik dövlətin təhlükəsizliyini möhkəmləndirən, cəmiyyətin müqavimət potensialını artıran və uzunmüddətli inkişafını təmin edən əsas şərtlərdəndir. Güclü siyasi mədəniyyət, konstruktiv dialoq və məsuliyyətli siyasi davranış olmadan nə iqtisadi inkişafı davamlı etmək, nə də milli təhlükəsizliyi etibarlı şəkildə qorumaq mümkündür.

Azərbaycanın təşəbbüsü ilə son illər beynəlxalq səviyyədə təşkil olunan siyasi dialoq platformaları bu modelin böyük beynəlxalq maraq doğurduğunu göstərir. Xüsusilə 2022-ci ildən başlayaraq xoş bir ənənəyə çevrilmiş və bu il iyunun 15-də Şuşada növbəti dəfə keçirilən "Qlobal təhlükəsizliyə regional töhfə: Cənubi Qafqazda sülh quruculuğu" mövzusunda beynəlxalq konfrans bunun daha bir təsdiqidir.

Azərbaycanın evsahibliyi etdiyi bir çox qlobal tədbir kimi, siyasi dialoq, qarşılıqlı etimad və milli həmrəylik mövzularında mühüm müzakirə platformasına çevrilmiş konfranslarda iştirakçıların, bura öz nümayəndələrini göndərən ölkələrin sayının ildən-ilə artması, aparılan müzakirələrin effektivliyi və xarici ölkələrin təmsilçilərinin Azərbaycanın yaratdığı konfiqurasiyanı həssaslıqla öyrənmələri, bunu xüsusi qeyd etmələri Prezident İlham Əliyevin müəllifi olduğu konsepsiyanın necə səmərəli nəticələr verdiyini və dünyada mükəmməllik örnəyi kimi qəbul olunduğunu sərgiləyir. Azərbaycan öz təcrübəsi ilə sübut edir ki, siyasi dialoq, milli həmrəylik və dövlətçilik prinsipləri üzərində qurulan idarəetmə modeli yalnız daxili sabitliyi möhkəmləndirmir, həm də regional əməkdaşlığa və qlobal təhlükəsizliyin möhkəmlənməsinə real töhfə verir.

Böyük milli hədəf

Prezident İlham Əliyev əsl milli lider, böyük vətənpərvər, tarix yaradan və yazan rəhbər kimi Azərbaycan dövlətini, xalqını dünyanın ən güclüləri, ən müasirləri sırasına çıxarmağı məqsəd seçib. Dövlətimizin başçısı Azərbaycanın və yaşadığımız coğrafiyanın, sadəcə, qarşıdakı beş ilini, on ilini düşünmür, onun hədəfləri əsrləri əhatə edir.

Bu gün təməlini atdığı və artıq nəticələrini gördüyümüz enerji layihələri, nəqliyyat-logistik təşəbbüsləri, iqtisadi planları, sosial məqsədləri necə ki, əsrlər sonra da Azərbaycanı qüdrətli və rifahlı edəcək, eləcə də onun siyasi islahatları, yaratdığı yeni siyasi konfiqurasiya respublikamızı onilliklər sonra da dünyanın ən modern, demokratik ölkələri sırasında qərarlaşdıracaq. Ona görə də cənab İlham Əliyevin formalaşdırdığı yeni siyasi konfiqurasiyanın əsas məqsədi təkcə ölkədə siyasi sabitliyi və milli həmrəyliyi möhkəmləndirməklə məhdudlaşmır.

Bu model, hər şeydən əvvəl, Azərbaycanın uzunmüddətli milli hədəflərinin ardıcıl və sistemli şəkildə həyata keçirilməsinə xidmət edən strateji dövlətçilik platforması rolunda görünür. Güclü siyasi institutlar, sağlam siyasi dialoq və milli maraqlar ətrafında formalaşan ictimai konsensus ölkənin qarşısında duran strateji vəzifələrin daha effektiv şəkildə həyata keçirilməsi üçün möhkəm siyasi zəmin yaradır.

Azərbaycanın milli inkişaf gündəliyində xüsusi yer tutan prioritetlər - işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işləri, "Böyük qayıdış" proqramının uğurla həyata keçirilməsi, regionda nəqliyyat və kommunikasiya xətlərinin inkişafı, regional əməkdaşlığın genişləndirilməsi və cənab İlham Əliyevin irəli sürdüyü sülh gündəliyi üzrə dayanıqlı sülhün təmin olunması - məhz belə bir siyasi konfiqurasiyanın yaratdığı imkanlar sayəsində ardıcıl şəkildə irəliləyir.

Bu strateji gündəliyin ən mühüm istiqamətlərindən biri də təbii ki, Qərbi Azərbaycan məsələsidir. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Qərbi Azərbaycan mövzusu hər hansı müvəqqəti siyasi şüar deyil, tarixi ədalət, insan hüquqları və beynəlxalq hüquq prinsipləri əsasında formalaşdırılan uzunmüddətli konseptual yanaşmadır. Bu baxımdan, Qərbi Azərbaycana qayıdış ideyası tarixi yaddaşın qorunması ilə yanaşı, eyni zamanda didərgin düşmüş azərbaycanlıların hüquqlarının beynəlxalq hüquq normaları çərçivəsində qorunmasına, tarixi ədalətin bərpasına yönəlmiş dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi təqdim olunur.

Beləliklə, zəmanəsinin ən parlaq liderlərindən olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin formalaşdırdığı yeni siyasi konfiqurasiya yalnız ölkədaxili siyasi münasibətlərin təkmilləşdirilməsi modeli olmayıb, ümumilikdə Azərbaycanın milli inkişaf strategiyasını, tarixi hədəflərini və uzunmüddətli dövlətçilik prioritetlərini dəstəkləyən vahid siyasi platformadır.

Bu platforma Prezident İlham Əliyevin dövlətçilik konsepsiyasının əsas xüsusiyyətini - milli maraqların ardıcıl, sistemli və uzunmüddətli strateji planlaşdırma əsasında həyata keçirilməsini aydın şəkildə nümayiş etdirərək siyasi konfiqurasiyanın Azərbaycan modeli ilə bütün dünya üçün mükəmməl nümunə formalaşdırır.

Arzu ABDULLAYEV,
Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin sədr müavini

Albaniya Azərbaycanın Balkan yarımadasında etibarlı tərəfdaşıdır

Balkan yarımadasının gözəl guşəsində, Adriatik və İon dənizlərinin qovşağında yerləşən əlverişli coğrafi mövqeyi, zəngin yeraltı sərvətləri və füsunkar təbiəti Albaniyanı həm Avropa logistikasında, həm də qlobal turizm xəritəsində getdikcə daha cazibədar mərkəzə çevirir. Dağlarla sahilin qovuşduğu təbii gözəlliklər, qədim tarixi abidələr, qonaqpərvərlik və tolerantlıq kimi dərin mənəvi dəyərlər, eləcə də Aralıq dənizi ilə Balkan ənənələrini birləşdirən özünəməxsus milli mətbəx səyahətçiləri özünə cəlb etdiyi kimi, ölkənin nəqliyyat-logistika potensialı və regional enerji təhlükəsizliyində artan rolu onu strateji tərəfdaş kimi ön plana çıxarır. Məhz bu nöqtədə xalqlararası səmimi yaxınlıq, iqtisadi maraqlar və enerji layihələri üzərində ucalan Azərbaycan-Albaniya strateji əməkdaşlığı Xəzər hövzəsi ilə Balkanlar arasında yeni inkişaf və etimad körpüsü yaradır.



Tarixin müxtəlif çağlarında öz azadlığı və müstəqilliyi uğrunda mübarizə aparmış alban xalqı bu gün Avropa ailəsində özünəməxsus yer tutmaqla onun iqtisadi inkişafına da yeni-yeni töhfələr verməkdədir. Albaniyanın dünya bazarına ixrac etdiyi əsas məhsullar - toxuculuq (geyim), mineral yanacaqlar, elektrik avadanlıqları və metallar ona müsbət imic qazandırmaqla yanaşı alıcıların da zövqünü oxşayır. Son ticarət göstəricilərinə əsasən, ölkənin illik əmtəə ixracı təxminən 3,7-4 milyard dollar təşkil edir. İxrac məhsullarının təxminən 16,5 faizini (618 milyon dollar) dəri ayaqqabılar və yarımfabrikat ayaqqabı hissələri təşkil edir.

Həmçinin dəmir, polad, alüminium məmulatları, xrom və mis filizləri ixracat məhsulları arasında mühüm yer tutur. Albaniya dünyada xrom filizi və ferroxrom ixracatçıları arasında seçilir. Albaniya məhsullarının böyük hissəsi Avropa bazarlarına göndərilir.

Bu ölkənin ən mühüm ixracat tərəfdaşları İtaliya, Yunanıstan, Çin, Türkiyə, Almaniya və qonşu Balkan ölkələridir (Serbiya, Kosovo, Şimali Makedoniya). İtaliya Albaniya ixracının ən böyük bazarlarından biridir. Ölkənin xarici ticarət dövriyyəsində, adətən, idxal ixracı üstələyir.

Müasir Albaniyanın xarici siyasəti avro-Atlantik məkana inteqrasiya, ABŞ ilə strateji müttəfiqlik, regional sabitlik və Kosovo başda olmaqla, xaricdə yaşayan albanların hüquqlarının müdafiəsi prinsiplərinə əsaslanır. Əsas strateji hədəf olan Avropa İttifaqına üzvlük Tirananın xarici və daxili siyasətinin mərkəzində dayanır. NATO üzvü olan Albaniya bu alyansı öz milli təhlükəsizliyinin əsas dayağı hesab edir. Birləşmiş Ştatlar Albaniyanın ən yaxın strateji müttəfiqidir və bu münasibətlər ölkə daxilində həm iqtidar, həm də müxalifət tərəfindən birmənalı dəstəklənir. Albaniya Qərbi Balkanlarda sülhün və iqtisadi inteqrasiyanın tərəfdarı kimi çıxış edir.

Azərbaycanın Avropa siyasətində Albaniya mühüm yerlərdən birini tutur. Albaniya Respublikası Azərbaycan Respublikasının dövlət müstəqilliyini 4 yanvar 1992-ci ildə tanıyıb, iki ölkə arasında diplomatik əlaqələr 23 sentyabr 1993-cü ildə qurulmuşdur. Azərbaycanın Tirana şəhərində səfirliyinin təsis edilməsi haqqında qərar 18 noyabr 2022-ci ildə, Albaniyanın Azərbaycanda öz səfirliyini açması qərarı isə 1 mart 2023-cü ildə qəbul edilmişdir. Müqavilə-hüquqi baza kimi ölkələr arasında müxtəlif sahələri əhatə edən 10-dan çox sənəd imzalanmışdır.

2025-2026-cı illərdə Azərbaycan Respublikası ilə Albaniya Respublikası arasında münasibətlər intensiv diplomatik dialoq, iqtisadi-enerji tərəfdaşlığının dərinləşməsi və mədəni-humanitar sahədə sistemli layihələrin həyata keçirilməsi ilə səciyyələnir. Bu dövrdə ikitərəfli əlaqələr regional çərçivədən çıxaraq Balkan regionunda və Cənub-Şərqi Avropada strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Azərbaycan Albaniya ilə münasibətlərin inkişafına xüsusi əhəmiyyət verir. İki ölkə arasında əməkdaşlıq siyasi, iqtisadi və humanitar sahələri əhatə edir. Siyasi münasibətlərin yaxşı olması digər sahələrdə əməkdaşlığın inişafına ciddi təsir göstərir. Yüksəksəviyyəli qarşılıqlı səfərlər və beynəlxalq təşkilatlar sıx koordinasiya ilə yadda qalmışdır.

Son illər Azərbaycan ilə Albaniya arasında dostluq və tərəfdaşlıq münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoyub. Bakı və Tirana arasında dövlət və hökumət başçıları səviyyəsində keçirilən görüşlər ("Cənub Qaz Dəhlizi" Məşvərət Şurası və müxtəlif beynəlxalq forumlar çərçivəsində) ikitərəfli siyasi iradənin bariz nümunəsidir. Hər iki dövlət birbirinin suverenliyini və ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləmiş, BMT, ATƏT və Avropa Şurası çərçivəsində vahid mövqedən çıxış etmişlər.

İkitərəfli əlaqələrin genişlənməsi fonunda ötən il mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Albaniya Respublikasının Baş naziri Edi Ramanın və Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın dəvəti ilə "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə Toplantısında iştirak etmək məqsədilə Tiranaya işgüzar səfər edib. Dövlətimizin başçısının bu səfəri "Avropa Siyasi Birliyi" platformasında aparılan müzakirələrdə Azərbaycanın fəal iştirakını təmin etməklə yanaşı, Azərbaycan-Albaniya əməkdaşlığının dərinləşdirilməsi baxımından da əhəmiyyətli hadisədir.

Albaniya həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib və bu dəstək qarşılıqlı olub. Bir sıra beynəlxalq forumlarda Tirana rəsmi Bakının haqlı mövqeyini dəfələrlə müdafiə etmişdir. Bu cür yanaşmalar qarşılıqlı xarakter kəsb etmişdir. Belə ki, Azərbaycan Albaniyanı Qərbi Balkanlarda mühüm strateji tərəfdaş kimi qəbul edir, Tirana isə Bakını regionun enerji təhlükəsizliyinin əsas təminatçısı və Cənubi Qafqazın aparıcı gücü kimi qiymətləndirir.

Milli Məclisdə Azərbaycan-Albaniya parlamentlərarası əlaqələr üzrə İşçi qrupu fəaliyyət göstərir. Milli Məclisin Sədri Sahibə Qafarova və Albaniya Parlamentinin Sədri Niko Peleşi arasında görüşlərdə parlamentlərarası əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı səfərlərin artırılması və təcrübə mübadiləsi müzakirə olunub.

Hər iki ölkənin parlament nümayəndə heyətləri ATƏT Parlament Assambleyası, Avropa Şurası Parlament Assambleyası və digər beynəlxalq parlament qurumları çərçivəsində əməkdaşlıq və qarşılıqlı dəstək nümayiş etdirir.

2026-cı il oktyabrın 12-də Azərbaycan və Albaniya nümayəndələri NATO çərçivəsində əməkdaşlığı, o cümlədən Avropanın enerji təhlükəsizliyini və ikitərəfli münasibətlərin perspektivlərini müzakirə edib. Bu əməkdaşlıq həm də Azərbaycanın Avropa strukturlarına inteqrasiyasında mühüm əhəmiyyət kəsb edir.

İqtisadi sahədə əsas aparıcı sahə enerji sektoru və infrastruktur layihələri olmuşdur. Azərbaycan və Albaniya arasında iqtisadi və enerji sahəsində əməkdaşlıq son illərdə yeni dinamika qazanıb. Energetika sahəsində Trans-Adriatik Boru Kəməri (TAP) layihəsi çərçivəsində enerji əməkdaşlığının gücləndirilməsi, investisiya imkanlarının artırılması və nəqliyyat-logistika sahəsində birgə təşəbbüslərin reallaşdırılması münasibətlərin əsas istiqamətlərini təşkil edir. Azərbaycan və Albaniya TAP layihəsinin üzvləridir və "Cənub qaz dəhlizi"nin icrasında önəmli rol oynayıblar.

2026-cı ildən etibarən Azərbaycan qazının birbaşa Albaniya daxili bazarına nəqli istiqamətində praktiki addımlar atılmışdır (ötürülmə həcminin ilkin olaraq 160-200 milyon kubmetrə çatdırılması hədəflənir). Albaniyanın qazlaşdırılması layihəsi qarşılıqlı əməkdaşlığa bariz nümunədir. SOCAR-ın iştirakı ilə Korça şəhərinin və ətraf regionların qazlaşdırılması, qazpaylayıcı şəbəkənin qurulması üzrə Anlaşma Memorandumu çərçivəsində texniki-iqtisadi əsaslandırmalar və infrastruktur işləri sürətləndirilmişdir.

İkitərəfli ticarət dövriyyəsinin həcmi artmış, tikinti, kənd təsərrüfatı və birgə yaradılan enerji ("yaşıl enerji") sahələrində birgə investisiya imkanları genişləndirilmişdir. Belə ki, iqtisadi-ticari dövriyyənin şaxələndirilməsi və investisiya təşəbbüsləri hər iki tərəfdən dəstəklənir.

Mədəni əlaqələr çərçivəsində 2025-ci ilin noyabr ayında Tirana İncəsənət Qalereyasında "Əllərin var olsun!" adı altında Azərbaycan və Albaniya xalça sənətinə həsr olunmuş xalça sərgisi açılmış və 2026-cı ilin yanvar ayının ortalarınadək davam etmişdir. Layihə "Azərxalça" ASC, Azərbaycanın Albaniyadakı səfirliyi və Tirana İncəsənət Qalereyasının birgə təşkilatçılığı, həmçinin Tirana şəhər bələdiyyəsinin dəstəyi ilə həyata keçirilib.

İki ölkə arasında ədəbi əlaqələr də durmadan inkişaf edir. Dünyaşöhrətli alban yazıçısı İsmayıl Kadarenin Azərbaycan dilinə tərcümə edilmiş romanları yerli oxucuların rəğbətini qazanmışdır. Azərbaycan oxucularına alban ədəbiyyatının tanınmış nümayəndələri olan Dritero Aqolli, Migyeni, Fatoş Arapi, Naim Fraşeri, Eşref Yemeri və Teodor Laçonun əsərləri, hekayə və povestləri yaxşı məlumdur. Azərbaycanın xalq yazıçısı Anarın "Ağ qoç, qara qoç" povesti alban dilinə tərcümə edilərək nəşr olunmuşdur. Həmçinin Albaniya Milli Kitabxanasında Azərbaycan ədəbiyyatı guşəsi açılmışdır.

Turizm sahəsində qarşılıqlı münasibətlər inkişaf edir. Albaniyanı qərbdən və cənub-qərbdən iki dəniz əhatə edir: Adriatik dənizi və İon dənizi. Hər iki dəniz sahilindəki ən məşhur kurort şəhərləri (Durres, Vlyora, Saranda, Ksamil) getdikcə daha çox turistin diqqətini çəkir. Məhz buna görədir ki, hər il Albaniyaya səyahət edən turistlərin sayı 12 milyon nəfərə çatmışdır. Albaniyanın bu sahədə əldə etdiyi çoxillik təcrübəsindən Azərbaycan tərəfi yararlana bilər. Həmçinin birbaşa Bakı-Tirana-Bakı hava marşrutunun fəaliyyəti turizmin inkişafına da müsbət təsir göstərir. 2025-ci il iyunun 21-də iki ölkə arasında turizm sahəsində əməkdaşlıq üzrə Anlaşma Memorandumu imzalanmışdır.

Təhsil sahəsində əlaqələrin perspektivləri də böyükdür. Ali təhsil müəssisələri arasında tələbə və müəllim mübadiləsi, eləcə də Bakı və Tiranada birgə mədəniyyət günlərinin, rəsm və sənətkarlıq sərgilərinin keçirilməsi bu iki dost xalq arasında əlaqələri dərinləşdirir.

Hazırda Azərbaycan ilə Albaniya arasında formalaşan əməkdaşlıq regionda sülh və sabitliyin möhkəmləndirilməsinə, eyni zamanda Avropa ilə Asiya arasında strateji körpünün yaradılmasına əhəmiyyətli töhfə verir. Azərbaycan-Albaniya münasibətləri yalnız ikitərəfli çərçivədə deyil, həm də Cənubi Qafqaz-Balkan Avropası geoiqtisadi oxunun möhkəmlənməsi baxımından strateji əhəmiyyət kəsb edir.

Bakı ilə Tirana arasında formalaşan etimad və qarşılıqlı hörmət əsasında qurulan münasibətlər Albaniyanı Azərbaycanın Balkan yarımadasında etibarlı və strateji tərəfdaşına çevirir. Enerji təhlükəsizliyindən tutmuş iqtisadi əməkdaşlığa, beynəlxalq platformalardakı qarşılıqlı dəstəkdən mədəni yaxınlaşmaya qədər uzanan bu əlaqələr Cənubi Qafqaz ilə Cənub-Şərqi Avropa arasında yeni körpülər yaradır. Gələcəyə yönəlmiş ortaq layihələr və hər iki ölkənin dövlət rəhbərlərinin siyasi iradəsi göstərir ki, bu tərəfdaşlıq təkcə iki ölkənin maraqlarına deyil, həm də regionda sabitliyin və qarşılıqlı inkişafın möhkəmlənməsinə xidmət edir.

Atamoğlan MƏMMƏDLİ,
BDU-nun dosenti

Naxçıvan dağ-mədən yataqları ilə də zəngindir

Dünyada metala və strateji minerallara tələbatın sürətlə artdığı bir zamanda ölkəmizin dağ-mədən yataqlarının öyrənilməsi və işə salınması böyük önəm daşıyır. Bu sərvətin bir hissəsi də Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşir.







Cari ilin sentyabr ayında Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasında 2027-2030-cu illərdə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı"nda, eləcə də bu mövzu ilə bağlı keçirdiyi müşavirədə ölkəmizin, o cümlədən Naxçıvanın bu xəzinəsinin dərindən öyrənilməsi və istismara verilməsi məsələləri öz geniş əksini tapıb.

Əvvəla qeyd edək ki, Naxçıvan MR 10-dan çox əsas metal filiz yatağı ("Göydağ", "Parağaçay", "Gümüşlü", "Qapıcıq", "Piazbaşı", "Diaxçay", "Misdağ-Şəlalə", "Ağyurd" və s.) var. Bu yataqlarda, əsasən, mis, molibden, qızıl, sink və qurğuşun ehtiyatları cəmlənib. Məsələn, "Parağaçay" molibden-mis filizləri ilə seçilən iri yataqlardan biridir. "Göydağ" Culfa rayonunda yerləşən mis-porfir yatağıdır. Orada geofiziki araşdırmalar, buruq-qazma və mineral resursların qiymətləndirilməsi aparılıb. "Gümüşlü "polimetal filiz yatağıdır, qurğuşun, sink və digər metallarla zəngindir. "Qapıcıq" isə filiz yatağı kimi beynəlxalq və geoloji qiymətləndirmə işlərinə cəlb olunan əsas sahələrdəndir. "Piazbaşı" Ordubad ərazisində yerləşən qızıl və əlaqəli filiz mineralları (pirit, xalkopirit, molibden, mis) ilə tanınır.

"Diaxçay" və "Misdağ-Şəlalə", "Ağyurd", "Nəsirvaz-Ağdərə", "Xalxal" kimi əhəmiyyətli yataq və sahələr də var.

Sözügedən müşavirədə Prezident İlham Əliyev dağ-mədən sənayesinin inkişafı baxımından Naxçıvan Muxtar Respublikasının da perspektivli bölgə olduğunu vurğulayaraq deyib: "Orada da vaxtilə - sovet dövrünü nəzərdə tuturam - və son dövrlərdə geoloji kəşfiyyat işləri lazımi səviyyədə aparılmamışdır. Ona görə orada da böyük yataqların mövcudluğu ehtimalı çox yüksəkdir. Naxçıvan Muxtar Respublikasında geoloji kəşfiyyat işləri artıq yeqin ki, gələn ildən başlayacaq".

Naxçıvanın bu və digər yataqlarının sahə iqtisadiyyatının xammal bazasına sanballı töhfə verəcəyi də diqqətə çatdırılıb.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının 2023-2027-ci illərdə sosial-iqtisadi inkişafına dair dövlət proqramında da mineral xammal ehtiyatlarının öyrənilməsi və qiymətləndirilməsi ilə bağlı bir sıra mühüm tədbirlər öz əksini tapıb. Bu istiqamətlərdən biri filiz və qeyri-filiz yataqlarının beynəlxalq qiymətləndiricilərin iştirakı ilə qiymətləndirilməsi və investisiya üçün açılmasıdır. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi rəsmisinin bildirdiyinə görə, bu məqsədlə 2024-cü ildə Türkiyə Respublikası Enerji və Təbii Sərvətlər Nazirliyinin Mədən Tədqiqi və Axtarış Baş İdarəsi ilə müqavilə imzalanıb. Müqavilə çərçivəsində "Parağaçay-molibden", "Qapıcıq-molibden" və "Gümüşlü" yataqlarında geoloji tədqiqat işlərinə başlanıb. Ümumilikdə layihə üzrə 3800 poqonometr həcmində buruq-qazma işləri aparılıb, 4 mindən çox sınaqlaşdırma həyata keçirilib, eləcə də digər kompleks geoloji tədqiqat işləri yerinə yetirilib. Aparılmış işlərin nəticələri əsasında yekun hesabatlar hazırlanıb. Qiymətləndirmənin nəticələrinə əsasən, hər üç yatağın perspektivli olduğu müəyyənləşdirilib. Növbəti mərhələdə daha dəqiq geoloji-kəşfiyyat işlərinin aparılması və yataqlardakı resursların tam və dəqiq hesablanması məqsədəuyğun hesab edilir.

Nəzərdə tutulan digər mühüm istiqamət isə qara, əlvan və nəcib metalların axtarışı və qiymətləndirilməsi layihəsidir. Bununla bağlı 2023-2024-cü illərdə Ordubad rayonunun "Nəsirvaz-Ağdərə" sahəsində kompleks geoloji tədqiqat işləri aparılıb. Burada buruq quyuları, yerüstü dağ qazmaları və kompleks sınaqlaşdırma işləri həyata keçirilib, nəticədə ərazidə geoloji tədqiqatlar yekunlaşdırılıb. 2025-2026-cı illərdə isə həmin bəndin icrası ilə əlaqədar Babək rayonunun "Xalxal" sahəsində qara, əlvan və nəcib metallar üzrə geoloji qiymətləndirmə işlərinə başlanıb. Hazırda burada yerüstü dağ qazmaları, buruq quyuları və kompleks sınaqlaşdırma işləri ilə müşayiət olunan geoloji tədqiqatlar davam etdirilir.

Muxtar respublikada son dövrlərdə kəşf olunmuş və ehtiyatları hesablanmış mənbələrdən biri də "Ortakənd" qızıl yatağıdır. "AzerGold" QSC tərəfindən yataqda kompleks geoloji-kəşfiyyat işləri aparılıb. Hesablanmış ehtiyatlar yatağın iqtisadi baxımdan səmərəli və əlverişli olduğunu göstərir. Belə ki, yataqda 246 min unsiya çıxarıla bilən qızıl ehtiyatının olduğu hesablanıb.

Deyilənlərə onu da əlavə edək ki, son 50 il ərzində muxtar respublikada zəngin ehtiyatlara malik filiz - mis, sink, əlvan və nəcib metal yataqları ilə yanaşı, 70 qeyri-filiz inşaat materialı və tikinti materialları kəşf edilib.

"Azərbaycan Respublikasında 2027-2030-cu illərdə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı" çərçivəsində görüləcək işlər çoxdur. Bunlar respublikamızda dağ-mədən yataqları yerləşən bütün rayonları əhatə edir. Əsas məqsəd təkcə daha çox xammal hasil etmək deyil, həm də bu xammalı ölkə daxilində daha çox emal etmək və daha yüksək əlavə dəyər yaratmaqdır. Proqram bu məqsədə çatmaq üçün əsas istiqamətləri müəyyən edir.

Flora SADIQLI,
"Azərbaycan"

"Sülh körpüsü" praktiki müstəviyə keçir

Cənubi Qafqazda uzun illər davam edən münaqişə səhifəsinin bağlanması və regionda davamlı sülhün təmin olunması istiqamətində siyasi-diplomatik addımlarla yanaşı, ictimai müstəvidə də fəaliyyət göstərilir. Hesab edilir ki, ikitərəfli münasibətlərin normallaşması prosesində rəsmi danışıqlardan əlavə cəmiyyətlər arasında illərlə formalaşmış stereotiplərin tədricən aradan qaldırılması və birbaşa dialoq mexanizmlərinin qurulması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, ictimai diplomatiya təşəbbüsləri regionda yeni reallıqların qəbul edilməsi və sülh gündəliyinin dərinləşdirilməsi üçün bir platforma rolunu oynayır.

Bu baxımdan, "Sülh körpüsü" təşəbbüsü çərçivəsində noyabrın 26-27-də Azərbaycan və Ermənistan vətəndaş cəmiyyətləri nümayəndələrinin iştirakı ilə İrəvanda keçirilən geniş tərkibli ikitərəfli "dəyirmi masa" müzakirələri diqqətəlayiq hadisə kimi dəyərləndirilə bilər. Hər iki ölkədən ümumilikdə 60 vətəndaş cəmiyyəti təmsilçisinin qatıldığı bu görüş təkcə iştirakçı sayının çoxluğu ilə deyil, həm də müzakirə olunan məsələlərin əhatə dairəsi ilə fərqlənir.

Bir vaxtlar erməni təmsilçilərinin Azərbaycana qarşı əsassız iddialarla çıxış etməsinə cavab olaraq Azərbaycan nümayəndələri İrəvana səfər etməkdən imtina etmiş və bu istiqamətdə təmaslar müvəqqəti olaraq dayanmışdı. Lakin Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan baş naziri Nikol Paşinyan arasında noyabrın 12-də İrlandiyanın Dublin şəhərində, "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısı çərçivəsində reallaşan görüşdə əldə olunan razılaşmalara uyğun olaraq ictimai diplomatiya xətti üzrə prosesin irəli aparılmasına qərar verilmişdi. Bu fakt göstərir ki, vətəndaş cəmiyyətləri arasında dialoq siyasi iradənin və ali səviyyədə əldə edilən razılaşmaların tərkib hissəsi kimi inkişaf etdirilir.

İrəvanda baş tutan beşinci raund müzakirələri 2025-ci il avqustun 8-də Vaşinqton Sammitində razılaşdırılmış sülh gündəliyini, Azərbaycan-Ermənistan sülh prosesinin möhkəmləndirilməsinə yönəlmiş təşəbbüsləri, eləcə də iki cəmiyyət arasında qarşılıqlı etimadın yaradılması və inkişaf etdirilməsi tədbirlərini geniş şəkildə əhatə edib. Bununla yanaşı, iştirakçılar Cənubi Qafqazda dayanıqlı iqtisadi əməkdaşlığın, ticarətin və bağlantı marşrutlarının yaradılması imkanlarını, humanitar məsələləri, gənclərlə işi və təhsil sahəsini, cəmiyyətlər arasında birbaşa əlaqələrin qurulması perspektivlərini ətraflı nəzərdən keçiriblər. "Sülh körpüsü" təşəbbüsü çərçivəsində 2025-ci və 2026-cı illərdə İrəvan, Bakı və Qəbələ şəhərlərində ümumilikdə beş görüşün keçirilməsi bu platformanın davamlı xarakter aldığını təsdiqləyir.

Budəfəki görüşün əvvəlkilərdən fərqi prosesin strukturlaşması və praktik müstəviyə keçməsidir. Ümumi müzakirələrlə yanaşı, bu dəfə ekologiya, iqtisadiyyat, infrastruktur, humanitar əməkdaşlıq və media istiqamətlərini əhatə edən tematik komitələr yaradılıb və onların ilk iclasları keçirilib. Yeni format çərçivəsində növbəti mərhələdə görülə biləcək konkret işlər, təqdim ediləcək təkliflər, mövcud fikir ayrılıqlarının aradan qaldırılması və sülh gündəliyinin genişləndirilməsi imkanları sistemli şəkildə araşdırılacaq. Artıq tərəflər arasında qapalı mövzuların qalmaması, iştirakçıların bir-birinə açıq suallar ünvanlayaraq birbaşa cavablar ala bilməsi və prosesə cəlb olunan insanların sayının artması dialoqun yeni mərhələyə qədəm qoyduğunu göstərir. Eyni zamanda təşəbbüs iştirakçılarının cəmiyyətlə işləmək təcrübəsinə malik olması bu komitələrin səmərəli fəaliyyəti üçün ciddi zəmin yaradır.

Yaradılan komitələrin fəaliyyət istiqamətləri sülh gündəliyinin həssas, eyni zamanda praktiki nəticə verə biləcək sahələrini əhatə edir. Məsələn, media istiqaməti üzrə əməkdaşlıq informasiya məkanında dezinformasiyaların və nifrət nitqinin azaldılmasına, ictimai rəyin sülhə hazırlanmasına xidmət edə bilər. Eyni qaydada iqtisadiyyat, infrastruktur və ekologiya komitələri regionun ümumi resurslarından səmərəli istifadə, nəqliyyat-kommunikasiya xətlərinin açılmasının yaratdığı iqtisadi dividendlər və ekoloji problemlərin birgə həlli yolları ətrafında ekspert rəylərinin formalaşdırılmasına şərait yaradır. Humanitar sahədə atılacaq addımlar isə onilliklər ərzində birbirindən təcrid olunmuş cəmiyyətlər arasında təmasların bərpasına və qarşılıqlı anlaşma mühitinin dərinləşməsinə töhfə verə bilər.

"Sülh körpüsü" təşəbbüsünün əsas xüsusiyyətlərindən biri də vətəndaş cəmiyyəti nümayəndələrinin dövlət rəsmiləri ilə birbaşa ünsiyyət qurmaq imkanına malik olmasıdır. Ənənəyə uyğun olaraq, müzakirələr çərçivəsində Ermənistan Təhlükəsizlik Şurasının katibi Alen Simonyan da iştirakçılarla görüşüb. Görüş zamanı iştirakçılar Alen Simonyana onları maraqlandıran sualları birbaşa ünvanlayıb, tərəflər arasında mövcud reallıqlar və gələcək perspektivlər ətrafında açıq fikir və mülahizələr mübadiləsi aparılıb. Nümayəndələrin qərar qəbul edən rəsmi şəxslərlə açıq formatda təması cəmiyyətləri narahat edən suallara cavab tapmaq və sülh prosesinə töhfə baxımından xüsusi əhəmiyyət daşıyır.

Digər tərəfdən, vətəndaş cəmiyyəti təmsilçilərinin dövlət rəsmiləri ilə birbaşa dialoqu həm də rəsmi İrəvanın sülh prosesinə nə dərəcədə hazır olub-olmadığını nümayiş etdirir. Belə görüşlər Ermənistan cəmiyyətində sülh gündəliyinə qarşı çıxan revanşist dairələrin manipulyasiyalarının qarşısını almaq və real vəziyyəti ictimaiyyətə düzgün çatdırmaq baxımından da əhəmiyyətlidir. Lakin ictimai diplomatiyanın davamlı nəticələr verməsi və bu təmasların formal xarakter daşımaması üçün İrəvandan rəsmi səviyyədə verilən bəyanatların konkret hüquqi və siyasi qərarlarla tamamlanması zəruridir.

Rəsmi Bakı regionda yekun və dayanıqlı sülhün təmin olunması üçün bütün zəruri addımları atıb və bu istiqamətdə konstruktiv mövqeyini davam etdirir. Azərbaycan tərəfinin təşəbbüskarlığı və siyasi iradəsi nəticəsində sülh prosesi artıq real məzmun kəsb edib. İndi əsas məsələ rəsmi İrəvanın üzərinə götürdüyü öhdəlikləri heç bir bəhanə gətirmədən, yubatmadan və qeyd-şərtsiz yerinə yetirməsidir. Ermənistanın konkret əməli addımları, ərazi iddialarından tam imtina etməsi və üzərinə düşən bütün öhdəlikləri icra etməsi regionda "Sülh körpü"sünün həqiqi təməllər üzərində qurulmasına imkan verəcək.

İsmayıl QOCAYEV,
"Azərbaycan"

Avropanın enerji və nəqliyyat təhlükəsizliyində Cənubi Qafqazın rolu artır

"Avropada yaşanan siyasi və iqtisadi gərginliklər, enerji təhlükəsizliyi ilə bağlı çağırışlar, beynəlxalq ticarət marşrutlarının dəyişməsi və geosiyasi rəqabətin güclənməsi Cənubi Qafqaz regionunun strateji əhəmiyyətini daha da artırır. Bu proseslər fonunda Azərbaycan, Gürcüstan və Ermənistanın yerləşdiyi region Avropa ilə Asiya arasında iqtisadi, logistika və enerji əlaqələrinin təmin edilməsində mühüm mövqeyə malikdir".



Bunu AZƏRTAC-a açıqlamasında **türk siyasi ekspert Mustafa SÖĞÜT** bildirib.

O qeyd edib ki, Avropada mövcud olan siyasi və iqtisadi qeyri-müəyyənliklər fonunda Cənubi Qafqazın əhəmiyyəti yalnız coğrafi mövqeyi ilə məhdudlaşmır.

"Regionun enerji resursları, tranzit imkanları, nəqliyyat infrastrukturu və yeni iqtisadi əməkdaşlıq potensialı onu beynəlxalq münasibətlər sistemində daha mühüm aktora çevirir. Avropa ölkələri enerji təchizatının şaxələndirilməsi, alternativ nəqliyyat və ticarət marşrutlarının inkişafı, eləcə də xarici iqtisadi risklərin azaldılması istiqamətində yeni strategiyalar müəyyənləşdirirlər. Bu baxımdan, Cənubi Qafqaz Avropa üçün etibarlı tərəfdaşlıq imkanları təqdim edən, Şərq və Qərb arasında əlaqələrin möhkəmləndirilməsinə xidmət edən region kimi diqqət çəkir", - deyə ekspert vurğulayıb.

Mustafa Söğüt qeyd edib ki, Azərbaycanın enerji infrastrukturu, beynəlxalq nəqliyyat layihələrində iştirakı və regional əməkdaşlıq təşəbbüsləri ölkənin strateji mövqeyini daha da gücləndirir: "Xüsusilə enerji resurslarının Avropa bazarlarına çatdırılması, Orta dəhlizin inkişafı və Xəzər regionu ilə Avropa arasında iqtisadi əlaqələrin genişləndirilməsi Azərbaycanın geosiyasi və geoiqtisadi rolunu artıran əsas amillərdəndir. Avropada iqtisadi çətinliklərin, siyasi fikir ayrılıqlarının və beynəlxalq rəqabətin artdığı bir dövrdə ölkələr yeni tərəfdaşlar və alternativ əməkdaşlıq platformaları axtarırlar. Bu tendensiya Cənubi Qafqaz dövlətləri üçün əlavə imkanlar yaradır. Regionun tranzit potensialından daha səmərəli istifadə edilməsi, enerji, logistika, sənaye və investisiya sahələrində əməkdaşlığın genişləndirilməsi iqtisadi inkişafı sürətləndirə bilər".

Onun sözlərinə görə, Cənubi Qafqazın gələcək strateji əhəmiyyəti regionda sabitliyin, təhlükəsizliyin və qarşılıqlı əməkdaşlığın təmin olunmasından da asılıdır.

"Sülhün möhkəmləndirilməsi, sərhədlərarası iqtisadi əlaqələrin inkişafı və nəqliyyat-kommunikasiya xətlərinin açılması regionun beynəlxalq iqtisadi sistemə inteqrasiyasını gücləndirəcək. Hazırkı beynəlxalq şərait Cənubi Qafqaz ölkələri üçün yeni geosiyasi və iqtisadi imkanlar yaradır. Bu imkanlardan düzgün istifadə olunarsa, region yalnız tranzit ərazi kimi deyil, həm də enerji, ticarət, investisiya və regional əməkdaşlıq mərkəzi kimi daha böyük əhəmiyyət qazana bilər. Azərbaycanın bu proseslərdə fəal iştirakı isə ölkənin beynəlxalq mövqeyinin möhkəmlənməsinə, iqtisadi əlaqələrinin genişlənməsinə və regional təşəbbüslərdə rolunun artmasına töhfə verəcək", - deyə Mustafa Söğüt əlavə edib.

Dayanıqlı iqtisadi inkişafın dəyişməz şərtləri

Güclü özəl sektor və sağlam rəqabət

Danılmaz gerçəklikdir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasətin əsas prioritetlərindən biri azad sahibkarlığın inkişafı, özəl sektorun iqtisadiyyatda rolunun artırılması və liberal bazar iqtisadiyyatı prinsiplərinin genişləndirilməsidir. Bu məqsədlə son illər biznes mühitinin yaxşılaşdırılması, sahibkarlıq fəaliyyətinə inzibati müdaxilələrin azaldılması, yoxlamaların məhdudlaşdırılması, lisenziya və icazə prosedurlarının sadələşdirilməsi istiqamətində islahatlar həyata keçirilib.



2024-cü il iyulun 1-dən qüvvəyə minən Rəqabət Məcəlləsi isə bazarda sağlam rəqabətin qorunması, inhisarçılığın qarşısının alınması və sahibkarlıq subyektləri üçün bərabər rəqabət imkanlarının yaradılması istiqamətində hüquqi addım olub. Sahibkarlığın maliyyə imkanlarının genişləndirilməsi üçün güzəştli kreditlər, dövlət zəmanətləri, investisiya təşviqi sənədləri və vergi-gömrük güzəştləri tətbiq olunması da məhz həmin islahatların nəticəsidir. Sənaye parklarının və məhəllələrinin, eləcə də aqroparkların və Ələt Azad İqtisadi Zonasının yaradılması, qeyri-neft ixracının təşviqi, KOBİA vasitəsilə kiçik və orta biznesə dəstəyin gücləndirilməsi də iqtisadiyyatın şaxələndirilməsinə və özəl sektorun mövqeyinin möhkəmləndirilməsinə xidmət edir. Bütün bunlar Azərbaycanda sahibkarlığın inkişafı və iqtisadiyyatın şaxələndirilməsi üçün yaradılan imkanları aydın göstərir.

Bəs həyata keçirilən islahatlar iqtisadi göstəricilərdə öz əksini necə tapır? Özəl sektorun iqtisadiyyatda çəkisi hansı səviyyəyə çatıb və liberal bazar prinsiplərinin inkişafı baxımından qarşıda hansı vəzifələr dayanır? Bu suallara 2025-ci ilin yekunları və 2026-cı ilin ilk doqquz ayının statistik göstəriciləri əsasında nəzər salaq. Dövlət Statistika Komitəsinin (DSK) məlumatlarına əsasən, 2025-ci ildə ölkədə 129,1 milyard manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Bu, əvvəlki illə müqayisədə real ifadədə 1,4 faiz artım deməkdir. Diqqətçəkən məqam ondan ibarətdir ki, neft-qaz sektorunda əlavə dəyər 1,6 faiz azaldığı halda, qeyri-neft-qaz sektorunda 2,7 faizlik artım qeydə alınıb. İlin yekununda qeyri-neft-qaz sektorunda ümumi daxili məhsul 92,3 milyard manata çatıb.

Rəqəmlər iqtisadiyyatın neftdənkənar istiqamətdə genişlənməsinin davam etdiyini göstərsə də, artım tempinin bir qədər də sürətləndirilməsinə ehtiyac olduğunu ortaya qoyur. Bu o deməkdir ki, Azərbaycanın iqtisadi potensialından daha səmərəli istifadə etmək üçün yeni biznes təşəbbüslərinin dəstəklənməsi, innovativ müəssisələrin yaradılması və sahibkarlığın inkişafı vacibdir. 2025-ci ildə qeyri-neft-qaz sənayesində 5,5 faizlik artım qeydə alınması bu baxımdan müsbət göstəricidir. Bununla yanaşı, əsas kapitala qoyulan investisiyaların ümumi həcmi 21,2 milyard manat təşkil edib.

2026-cı ilin ilk doqquz ayının nəticələri də iqtisadiyyatın ayrı-ayrı istiqamətlərində fərqli inkişaf dinamikasının olduğunu göstərir. Yenə də DSK-nın açıqladığı məlumatlara görə, yanvar-sentyabr aylarında Azərbaycanda 102 milyard manatlıq ümumi daxili məhsul istehsal olunub. İqtisadiyyatda 1,5 faiz, qeyri-neft-qaz sektorunda isə 2,6 faiz artım qeydə alınıb. Həmin dövrdə qeyri-neft-qaz sənayesində istehsal 5,4 faiz, nəqliyyat və anbar təsərrüfatı xidmətləri 10 faiz, informasiya və rabitə xidmətləri isə 11,1 faiz artımla diqqət çəkib.

Bununla belə, statistik göstəricilərə yalnız artım rəqəmləri prizmasından yanaşmaq doğru olmaz. Əsas məsələ həmin artımın hansı iqtisadi subyektlərin hesabına formalaşması, özəl sektorun bu prosesdə iştirak səviyyəsi və yaradılan əlavə dəyərin iqtisadiyyatın müxtəlif iştirakçıları arasında necə bölüşdürülməsidir. Çünki liberal iqtisadiyyatın mahiyyəti yalnız istehsal və xidmət həcminin yüksəlməsində deyil, iqtisadi imkanların genişlənməsində, sahibkarların sərbəst fəaliyyətində və bazarda bərabər rəqabət şəraitinin təmin olunmasındadır.

Bu mənada kiçik və orta sahibkarlığın inkişafı ayrıca diqqət tələb edir. Həmin biznes iqtisadiyyatın çevikliyini artıran, yeni iş yerləri yaradan, regionlarda iqtisadi fəallığı genişləndirən, bazara yeni məhsul və xidmətlər gətirən vacib qüvvədir. Azərbaycanda bu sahənin inkişafı üçün son illər müxtəlif dövlət dəstəyi mexanizmləri tətbiq edilib. KOBİA-nın fəaliyyəti, KOB evlərinin yaradılması, güzəştli maliyyə dəstəyi, sahibkarların maarifləndirilməsi və biznes xidmətlərinin elektronlaşdırılması həmin tədbirlər sırasındadır. Beynəlxalq təcrübə göstərir ki, kiçik və orta biznesin səmərəli fəaliyyətinin təmin edildiyi şəraitdə istehsal olunan məhsul və xidmətlərin yarıdan çoxu, elmi-texniki tərəqqidə uğurların istehsala tətbiqinin 80 faizi, hər yeni açılan 3 iş yerindən 2-si həmin sahənin payına düşür.

Əslində iqtisadiyyatın liberallaşdırılması dövlətin iqtisadi proseslərdə rolunun tamamilə aradan qaldırılması kimi başa düşülməməlidir. Dövlətin əsas vəzifəsi şəffaf və sabit hüquqi mühit yaratmaq, mülkiyyət hüquqlarını qorumaq, inhisarçılığın qarşısını almaq, ictimai maraqları təmin etmək və bazarda ədalətli rəqabət qaydalarının işləməsinə nəzarət etməkdir. Xüsusilə inkişaf etməkdə olan iqtisadiyyatlarda dövlətin tənzimləyici və təşviqedici funksiyası ilə özəl sektorun təşəbbüskarlığı arasında düzgün tarazlığın yaradılması çox önəm daşıyır.

Bu gün sahibkarlığın inkişafı həm də cəmiyyətdə təşəbbüskarlıq mədəniyyətinin formalaşması deməkdir. İnsanların öz ideyalarını biznesə çevirmək, risk etmək, investisiya qoymaq və yaratdıqları məhsul və xidmətlərlə bazarda mövqe qazanmaq imkanları nə qədər geniş olarsa, iqtisadiyyatın daxili potensialı da bir o qədər güclü olar. Belə bir mühitdə Azərbaycanın qarşısında duran əsas vəzifə əldə edilmiş iqtisadi nəticələri daha rəqabətli, şaxələndirilmiş və özəl təşəbbüslərə əsaslanan inkişaf modelinə çevirməkdir. Çünki güclü özəl sektor və sağlam rəqabət dayanıqlı inkişafın ən mühüm şərtlərindəndir.

Züleyxa ƏLİYEVA,
"Azərbaycan"

Qurban Xəlilov - 120

Tarix boyu xalqın yaddaşında silinməz iz qoyan şəxsiyyətlər təkcə tutduqları yüksək vəzifələrlə deyil, həm də keçdikləri həyat yolu, prinsiplərə sadiqlikləri və dövlətçilik ənənələrinə verdikləri töhfələrlə xatırlanırlar. XX əsr Azərbaycanının ictimai-siyasi və iqtisadi həyatında özünəməxsus yeri olan belə dövlət xadimlərindən biri də Qurban Əli oğlu Xəlilovdur. Onun ömür yolu əzmkarlıq, vətənpərvərlik və xalqa sədaqət nümunəsidir. Anadan olmasının 120 illiyi qeyd edilən bu böyük şəxsiyyətin həyat salnaməsinə nəzər saldıqda, onun Azərbaycanın iqtisadi və ictimai-siyasi inkişafına verdiyi əvəzsiz töhfələrin şahidi oluruq.



Əqidəsi təmizlik və xeyirxahlıq idi



Qurban Xəlilov 1906-cı ilin noyabrında Cənubi Azərbaycanın Ərdəbil yaxınlığındakı Kəlxoran kəndində sadə fəhlə ailəsində anadan olmuşdur. Ailəsi 1908-ci ildə yaxşı güzəran axtarışı ilə Bakıya köçmüşdür. Erkən yaşlarından həyatın çətinlikləri ilə üzləşən Qurban artıq 1920-ci ildə Keşlədə əmək fəaliyyətinə başlamışdır. Biliyə və sənətə olan böyük marağı onu 1923-cü ildə fabrik-zavod məktəbinə gətirib çıxarır. Məktəbi bitirdikdən sonra Montin adına zavodda tornaçı köməkçisi kimi çalışır və eyni zamanda istehsalatdan ayrılmadan təhsilini davam etdirir. O, 1933-cü ildə Azərbaycan Sənaye İnstitutunu bitirərək mühəndis ixtisasına yiyələnir.

Ali təhsil aldıqdan sonra Qurban Xəlilovun təşkilatçılıq bacarığı tezliklə özünü büruzə verir. O, Bakının iri maşınqayırma zavodlarında - S.M.Kirov, leytenant Şmidt və F.E.Dzerjinski adına zavodlarda mühəndis, sex rəisi və direktor vəzifələrində çalışaraq respublikanın sənaye potensialının güclənməsində iştirak edir. İkinci Dünya müharibəsinin ağır illərində Bakı Şəhər Partiya Komitəsinin katibi vəzifəsində çalışır və arxa cəbhənin fasiləsiz işləməsi, cəbhənin neft məhsulları, silah-sursatla təmin olunmasına böyük əmək sərf edir. Müharibədən sonrakı illərdə isə "Azneft" və "Azərneftkəşfiyyat" birliklərində rəis müavini, tikinti trestinin müdiri, Naxçıvan MSSR-də tikinti idarəsinin rəisi kimi məsul vəzifələrdə çalışır. 1956-1958-ci illərdə Azərbaycan SSR yerli sənaye naziri vəzifəsində işləmiş Qurban Xəlilov harada çalışırdısa, orada intizam, halallıq və yaradıcı əmək mühiti formalaşırdı.

11 il maliyyə naziri

1958-ci ildə Qurban Xəlilov Azərbaycan SSR-in maliyyə naziri təyin edilir və 1969-cu ilə qədər - düz 11 il bu strateji sahəyə rəhbərlik edir. Sənaye və tikinti sahəsini dərindən bilən təcrübəli istehsalatçı kimi onun maliyyə sisteminə gəlişi respublika büdcəsinin real iqtisadi sektorun ehtiyaclarına uyğun formalaşmasına təkan verir.

Q.Xəlilovun nazir olduğu dövr Azərbaycanda yeni sənaye müəssisələrinin, energetika obyektlərinin və yaşayış massivlərinin sürətlə tikildiyi illərə təsadüf edirdi. O, maliyyə intizamının möhkəmləndirilməsi, dövlət vəsaitlərinin məqsədyönlü xərclənməsi və büdcə gəlirlərinin artırılması istiqamətində ciddi nəzarət mexanizmləri qurmuşdur. Məhz bu dövrdə respublikanın sənaye və kənd təsərrüfatı layihələrinin maliyyələşdirilməsi sabit şəkildə təmin olunmuşdur.

Onun nazir kimi fəaliyyətinin əsas xüsusiyyətləri real iqtisadiyyatla büdcənin vəhdəti, sərt maliyyə intizamı və şəffaflıq, sosialyönümlü maliyyə siyasəti təşkil edirdi. Q.Xəlilov israfçılığa, kağız üzərində şişirdilmiş hesabatlara və büdcə vəsaitlərinin məqsədsiz xərclənməsinə qarşı barışmaz mövqe tutmuşdu. Onun rəhbərliyi dövründə maliyyə nəzarəti təkcə iqtisadi göstəricilərin yerinə yetirilməsinə deyil, həm də Bakıda və bölgələrdə yeni yaşayış massivlərinin salınmasına, məktəblərin, xəstəxanaların və mədəniyyət ocaqlarının maliyyələşdirilməsinə xidmət edirdi. İttifaq büdcəsindən Azərbaycanın inkişafı üçün əlavə vəsaitlərin ayrılması və respublikanın maliyyə maraqlarının qorunması məsələlərində Qurban Xəlilov hər zaman qətiyyətli və arqumentli mövqeyi ilə seçilirdi.

Tarixi qərarların imzası

1969-cu ildən etibarən Qurban Xəlilovun həyatında daha məsuliyyətli bir mərhələ başladı. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi böyük yüksəliş dövründə o, 16 il (1969-1985) Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri, eyni zamanda SSRİ Ali Soveti Rəyasət Heyəti sədrinin müavini kimi məsuliyyətli bir missiyanı yerinə yetirdi. Onun parlamentə rəhbərlik etdiyi bu illər Azərbaycan tarixinə qızıl hərflərlə yazılan mühüm hadisələrlə zəngindir.

1978-ci il aprelin 21-də qəbul edilən Azərbaycan SSR-in yeni Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması böyük və əlamətdar nailiyyət idi. Heydər Əliyevin siyasi iradəsi ilə ərsəyə gələn bu ali sənədin qəbul olunduğu tarixi sessiyaya məhz Qurban Xəlilov sədrlik etmişdir. Eyni zamanda həmin Konstitusiyaya əsasən Ali Sovetin Rəyasət Heyətinin səlahiyyətləri və tərkibi genişləndirilmişdir.

Bu dövrdə qanunvericilik sisteminin yenilənməsi xüsusi vurğulanmalıdır. Onun rəhbərliyi illərində respublikanın qanunvericilik bazası yeniləndi, insan hüquqlarının, ailə və əmək münasibətlərinin qorunmasına xidmət edən mühüm qanunlar qəbul edildi. Respublikanın mülki, cinayət, əmək, ailə, torpaq və su məcəllələri qəbul edilərək təkmilləşdirildi, xalq deputatları sovetlərinin yerlərdə sosial-iqtisadi məsələlərin həllində rolu artırıldı.

1978-ci ilin yanvarında Qəbələ şəhərinin xarabalıqları ərazisində hərbi obyekt tikintisi adı altında tarixi abidələrimizə zərər vurulmasının qarşısını almaq üçün Heydər Əliyev xüsusi dövlət komissiyası yaratdıqda, bu həssas və prinsipial missiyanı həvalə etdiyi əsas dövlət xadimlərindən biri məhz Qurban Xəlilov oldu. Bundan başqa, Qurban Xəlilov SSRİ Ali Soveti Rəyasət Heyəti sədrinin müavini kimi bir çox xarici ölkədə yüksəksəviyyəli dövlət nümayəndə heyətlərinə rəhbərlik edərək Azərbaycanı beynəlxalq müstəvidə ləyaqətlə təmsil edirdi.

Vətəndaş müraciətlərinə həssaslıq onun iş prinsipində mühüm yer tuturdu. O, vətəndaşların ərizə və şikayətlərinin şəxsən araşdırılmasına, fəhlə və kəndlilərin, ziyalıların problemlərinin yerində həllinə operativ diqqət yetirir, fəxri adların və dövlət mükafatlarının ən layiqli insanlara təqdim olunmasına nəzarət edirdi.

Heydər Əliyevin böyük etimad göstərdiyi, saflığına və dövlətçilik səriştəsinə dərindən inandığı nadir şəxsiyyətlərdən biri məhz Qurban Xəlilov idi. Bu səmimi dostluq və mənəvi bağlar bu gün də dövlət səviyyəsində böyük ehtiramla xatırlanır. 2026-cı il oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görkəmli fırça ustası, Xalq rəssamı Fərhad Xəlilova 80 illik yubileyi münasibətilə ali dövlət mükafatını - "İstiqlal" ordenini təqdim edərkən ataları Heydər Əliyev və Qurban Xəlilovun uzun illər Azərbaycana çiyin-çiyinə rəhbərlik etmələrini, aralarındakı dərin dostluq münasibətlərini xüsusi məhəbbətlə yad etdi. Dövlətimizin başçısı o illərin gənclik xatirələrini bölüşərək vurğuladı ki, bu gün müstəqil, torpaqları azad edilmiş Azərbaycanda övladların öz sahələrində ən uca zirvələrə çatmasına görə onların hər ikisinin ruhu şaddır. "Böyük rəhbərlərimizə sədaqət, onların işini davam etdirmək böyük şərəfdir", - dedi Prezident İlham Əliyev. İki böyük şəxsiyyətin münasibətlərdəki bu səmimi etimad və qarşılıqlı hörmət Azərbaycanın milli maraqlarının qorunduğu bir çox taleyüklü məsələdə özünü parlaq şəkildə göstərmişdi.

İnsanın əsl böyüklüyü qəlbinin təmizliyi, saflığı və keçdiyi yola sədaqətilə ölçülür. Qurban Xəlilov vəzifə pillələri ilə yuxarı qalxdıqca keçmişini, fəhlə köynəyinin təmizliyini dövlət adamının rəsmi libasından uca tutan nadir şəxsiyyət idi. Onun mənəvi dünyası sanki iki qütbün - polad kimi əyilməz iradənin və ipək kimi yumşaq insanlığın heyrətamiz vəhdətindən yoğrulmuşdu. Gəncliyində torna dəzgahı arxasında qazandığı o zərgər dəqiqliyi bütün ömrü boyu onun həyat prinsipinə çevrilmişdi. 11 il ölkənin maliyyə naziri, 16 il isə parlament sədri olmasına baxmayaraq, o, ömrünün axırına qədər son dərəcə təvazökar, dəbdəbədən uzaq həyat sürmüşdü. Dövlət malına xəyanəti bağışlamayan, hər qəpiyin hesabını dəqiqliyi ilə aparan bu insan şəxsi həyatında yalnız halal zəhmətinə güvənmişdi.

İlk baxışdan ciddi, tələbkar və zəhmli görünən Qurban müəllim, əslində, kövrək qəlbli bir ziyalı idi. O, iclaslarda məsuliyyətsiz məmurlara qarşı nə qədər sərt olurdusa, qapısına ümidlə gələn sadə bir kəndlinin, fəhlənin və ya kimsəsizin qarşısında bir o qədər həssas və qayğıkeş idi. Məktubların arasındakı insan fəryadını duyar, bəzən heç kimin bilmədiyi bir səssizliklə neçə-neçə ailənin taleyinə işıq yandırardı. Boş vədlər verməyi sevməzdi, hamını dinləyər, bircə kəlmə ilə ən dolaşıq düyünü açardı. Onun "olar" deməsi artıq imzalanmış bir sənəd qədər etibarlı idi.

Sənaye və maliyyə kimi sərt sahələrin adamı olsa da, daxilində gözəlliyə vurğun, incə bir ruh yaşayırdı. Oğlu Fərhad Xəlilovun rəssamlıq sənətinə olan sevgisini duyması, onu dəstəkləməsi və evində hər zaman ədəbiyyata, rəngkarlığa, musiqiyə yer ayırması onun nə qədər zərif və işıqlı daxili aləmə sahib olduğunu göstərirdi.

Çoxillik fəaliyyətinə görə 5 "Lenin" ordeni daxil olmaqla, yüksək dövlət mükafatlarına layiq görülsə də, Qurban Xəlilovun ən böyük mükafatı insanların ona olan səmimi sevgisi və hörməti idi. Onu tanıyanların xatirəsində Qurban müəllim təkcə böyük dövlət xadimi deyil, həm də hər kəsin dərdinə şərik olmağı bacaran mehriban, qayğıkeş bir ağsaqqal kimi qalıb.

2000-ci ilin martında, Novruz nəfəsli bir bahar günündə Bakıda dünyasını dəyişən Qurban Xəlilov Fəxri xiyabanda dəfn olunub. Fəhlə dəzgahından başlanan o sadə, amma şərəfli yol bu gün də bizə bir həqiqəti pıçıldayır: insanı ucaldan tutduğu vəzifə deyil, arxasınca qoyduğu xoş sözlər, gördüyü xeyirxah işlər və Vətənə bəslədiyi sədaqət, təmiz məhəbbətdir. Qurban Xəlilovun işıqlı xatirəsi məhz bu keyfiyyətlərinə görə xalqımızın qəlbində daim yaşayacaq.

İradə ƏLİYEVA,
"Azərbaycan"

Xankəndidən elmə və təhsilə açılan qapı

Qarabağ Universitetinin yaradılması ilə bağlı sərəncamın imzalanmasından 3 il ötür

Bir zamanlar müharibənin ağrı-acısını yaşamış, taleyində ağır sınaqların izləri qalmış Xankəndidə bu gün tamam başqa bir həyat yaşanır. Yenidən qurularaq dirçələn şəhərin küçələrindən gənclərin gülüşü, auditoriyalardan bilik soraqlı səsi eşidilir. Qarabağ Universiteti Xankəndiyə, sadəcə, ali təhsil ocağı kimi deyil, gələcəyə inamın, intellektual dirçəlişin və sülhə əsaslanan yeni həyatın rəmzi kimi gəlib.



2023-cü il noyabrın 28-də Prezident İlham Əliyevin "Qarabağ Universitetinin yaradılması haqqında" sərəncamı ilə əsası qoyulan bu təhsil müəssisəsi Qarabağın inkişaf tarixində yeni səhifə açdı. Sərəncamın mahiyyəti ali təhsil müəssisəsinin yaradılması ilə məhdudlaşmırdı. Əsas məqsəd azad edilmiş torpaqlarda elmin və təhsilin inkişafına təkan vermək, regionun gələcək ehtiyaclarını qarşılamaq, tarixən mövcud olmuş təhsil ənənələrini yaşatmaq idi.

Böyük qayıdışın mahiyyəti də məhz bu əhatəli yanaşmada özünü göstərir. Doğma yurda qayıdış yalnız yaşayış evlərinin tikilməsi, yolların çəkilməsi, sosial infrastrukturun qurulması ilə müşayiət olunmur. Həm də bu torpaqlarda intellektual həyat qaynayır, yeni nəsil yetişir, elmi və mədəni mühit formalaşır. Axı şəhərləri yaşadan, düşünən, yaradan, gələcək quran insanlardır. Bu baxımdan, Qarabağ Universiteti Xankəndinin yeni inkişaf mərhələsinin simvoludur. Universitetin fəaliyyətə başlaması şəhərin sosial, iqtisadi və mədəni həyatına yeni dinamika gətirib. Tələbələrin, müəllimlərin və elm adamlarının burada bir araya gəlməsi Xankəndidə fərqli ictimai mühit formalaşdırıb. Auditoriyalarda aparılan mühazirələr, elmi müzakirələr, səslənən tələbə təşəbbüsləri şəhərin gündəlik həyatına yeni məzmun və ritm verib. Xankəndi quruculuq şəhəri olmaqla yanaşı, bilik və təhsil məkanına çevrilib.

Universitetin şəhərin iqtisadi həyatına təsiri də xüsusi əhəmiyyət daşıyır. Təhsil müəssisəsinin ətrafında formalaşan sosial xidmət sahələrinin inkişafı, məşğulluq imkanlarının genişlənməsi və sahibkarlıq fəaliyyətinin canlanması üçün zəmin yaradıb. Tələbələrin və müəllimlərin gündəlik ehtiyacları, mədəni tədbirlər, elmi görüşlər və müxtəlif ictimai təşəbbüslər şəhərin həyatına hərəkətlilik gətirib. Bu baxımdan, universitet Xankəndinin inkişafında təhsil funksiyası ilə deyil, həm də sosial-iqtisadi canlanmaya verdiyi töhfə ilə seçilir.

Qarabağ Universitetinin qarşısında duran əsas vəzifələrdən biri regionun gələcək inkişafı üçün yüksəkixtisaslı kadrlar yetişdirməkdir. Burada təhsil alan gənclər gələcəkdə ilk növbədə Qarabağın və Şərqi Zəngəzurun iqtisadiyyatında, səhiyyəsində, mədəniyyətində və idarəetmə sahəsində çalışacaqlar. Onların bilik və bacarıqları azad edilmiş ərazilərdə qurulan yeni həyata təkan verəcək.

Müasir dünyada inkişafın əsas meyarlarından biri insan kapitalıdır. Təbii sərvətlər və iqtisadi imkanlar mühüm üstünlük təşkil etsə də, cəmiyyətin tərəqqisini təmin edən başlıca qüvvə bilikli, yaradıcı və yeniliklərə açıq insanlardır. Qarabağ Universiteti məhz belə bir potensialın formalaşmasına xidmət edir. Bu ali təhsil ocağı elmə açılan böyük bir pəncərədir. Bu pəncərədən regiona müasir biliklər, innovasiyalar, yeni texnologiyalar və beynəlxalq elmi əməkdaşlıq imkanları daxil olur. Bu mənada universitetin missiyası təkcə diplomlu mütəxəssislər yetişdirmək deyil, həm də müstəqil düşünən, araşdıran, yenilik yaradan və bilikləri ilə cəmiyyətə fayda verən şəxsiyyətlər formalaşdırmaqdır.

Qarabağ Universitetinin əhəmiyyəti təhsil və iqtisadiyyatla da bitmir. Onun yaradılması Azərbaycan dövlətinin quruculuq iradəsinin, gələcəyə inamının və sülhə əsaslanan inkişaf siyasətinin mühüm ifadəsidir. Uzun illər separatizmin əsiri olmuş bir şəhərdə elmin və təhsilin inkişafına belə böyük önəm verilməsi yeni həyatın hansı dəyərlər üzərində qurulduğunu göstərir. Burada əsas olan keçmiş şeytan yuvalarının yerində yeni binalar ucaltmaqla bərabər, həm də gələcək nəsillər üçün tərəqqi və qarşılıqlı anlaşma mühiti yaratmaqdır. Başqa sözlə, Qarabağ Universiteti sülhə uzanan əldir. O sülh ki, yalnız siyasi sənədlərlə təsbit olunmur, onu yaşadan insanların birgə fəaliyyəti, inkişaf naminə əməkdaşlığı və gələcəyə ortaq baxışı ilə bərqərar edilir. Elm isə xalqları birləşdirən, sərhədləri aşan, qarşılıqlı anlaşmanı gücləndirən mühüm vasitələrdən biridir. Qarabağ Universitetinin formalaşdırdığı akademik mühit gələcəkdə beynəlxalq elmi əlaqələrin genişlənməsinə, regionun dünya təhsil məkanına inteqrasiyasına da xidmət edə bilən təhsil müəssisəsi olacağı şübhə doğurmur.

Bu gün Qarabağ Universitetinə baxarkən həm də Xankəndinin yenilənən həyatını, gənclərin ümidlərini və Azərbaycanın Qarabağda və Şərqi Zəngəzurda qurduğu gələcəyin intellektual əsaslarını görürük. Universitetin auditoriyalarında təhsil alan hər bir gənc bu torpaqların sabahına bilik və zəhməti ilə töhfə verəcək. 2023-cü il noyabrın 28-də imzalanan tarixi sərəncamın əsl mahiyyəti də məhz bu böyük məqsədə xidmət edir.

Elşən QƏNİYEV,
"Azərbaycan"

Xocalı və Ağdərə rayonlarına növbəti köç

Daha 49 ailə doğma yurda qovuşub

Noyabrın 27-də Xocalı və Ağdərə rayonlarına növbəti köç reallaşıb. 170 nəfər olmaqla 49 keçmiş məcburi köçkün ailəsi doğma yurda qovuşub.









AZƏRTAC xəbər verir ki, Xocalı şəhərində ailələrə yeni mənzillərinin açarları təqdim edilib. Mərasimdə Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəliyinin, Bərpa, Tikinti və İdarəetmə Xidmətinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları iştirak ediblər.

Çıxış edənlər keçmiş məcburi köçkünləri təbrik edərək, onlara doğma yurdlarında xoşbəxt və firavan həyat arzulayıblar.

Bildirilib ki, köç olan kəndlərdə yaşayış üçün bütün zəruri infrastruktur yaradılıb. Yaşayış evləri bərpa olunub, elektrik, qaz, içməli su, yol və rabitə xətləri istifadəyə verilib. Köçən ailələrin məşğulluq məsələsi isə daim diqqət mərkəzindədir.

ANAMA-nın əməkdaşları sakinlərə mina və partlamamış silah-sursatların təhlükəsi barədə ətraflı məlumat veriblər. Tanımadıqları naməlum əşyalardan və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları zaman aidiyyəti qurumlara xəbər vermələrini tövsiyə ediblər.

Sonra ailələr sevinc hissi ilə yeni evlərində yerləşiblər.

Qeyd edək ki, bu mərhələdə Ağdərənin Vəngli kəndinə 10 ailə - 42 nəfər, Çıldıran kəndinə 15 ailə - 49 nəfər, Kolatağ kəndinə 2 ailə - 6 nəfər, Heyvalı kəndinə 1 ailə - 1 nəfər, Xocalının Badara kəndinə 4 ailə - 7 nəfər, Xanyurdu kəndinə 9 ailə - 32 nəfər, Xanabad kəndinə 8 ailə - 33 nəfər köçürülür.

Köç karvanı respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarətdir.

"Yurdumuza qayıtmağın sevincini yaşayırıq"

"Mən Zəngilan rayonundan məcburi köçkün düşmüşdüm. Artıq 34 ildir ki, beton zavodunun ərazisində yerləşən, yaşayış şəraiti heç də yaxşı olmayan bir yerdə məskunlaşmışdıq".





Bunu AZƏRTAC-a açıqlamasında Xocalıya qayıdan keçmiş məcburi köçkün Sədaqət Şaməmmədova söyləyib.

O əlavə edib: "Şükür Allaha 34 ildən sonra nəhayət ki, öz yurdumuza qayıtmaq sevincini yaşayırıq. Xocalıya köçürük, orada yaşayacağıq. Çox əziyyətlər çəkmişəm, çox çətinliklər yaşamışam. İnanırıq ki, bundan sonrakı həyatımız daha yaxşı, daha rahat olar. Allah bu sevinci yaşamaq istəyən hər kəsə qismət eləsin".

Xocalının Badara kəndinə qayıdan keçmiş məcburi köçkün Süsəm Rüstəmova isə bildirib: "Xocalının Badara kəndinə köçürük. Sağ olsun dövlətimiz, daha məcburi köçkünlükdən qurtulduq".

Oğlu və gəlini ilə birlikdə doğma yurda qayıdan S.Rüstəmova uzun illər məcburi köçkün həyatı yaşadıqlarını, müxtəlif yerlərdə məskunlaşmağa məcbur olduqlarını qeyd edib: "Neçə-neçə yer dəyişdik, müxtəlif ünvanlarda yaşadıq. Nəhayət, indi doğma yurdumuza qayıdırıq. Şükür Allaha, öz yerimizə, torpağımıza dönürük".

Məcburi köçkünlük illərində üzləşdikləri çətinlikləri xatırlayan S.Rüstəmova həmin dövrün onlar üçün olduqca ağır keçdiyini vurğulayıb: "Şükür Allaha, daha o çətin günlər geridə qaldı. Nə qədər əziyyət, nə qədər zülm çəkdik. Evimiz yox idi, eşiyimiz yox idi, heç nəyimiz yox idi".

RƏQƏMSAL DÜNYA

1700 illik sümük qalıqlarının sirri



Böyük Britaniyanın Bornmut Universitetinin məlumatına görə, Kembric-şirdəki Fens bataqlığında yerləşən qədim yaşayış məskənindən tapılan minlərlə qurbağa sümüyünün mənşəyi müəyyən edilib. Araşdırma göstərib ki, sümüklər böyük ehtimalla yırtıcı quşların ovladığı qurbağalara aiddir. Dairəvi evin yerləşdiyi ərazidəki xəndəkdən 8000-dən çox qurbağa sümüyü aşkarlanıb. Əvvəllər bu qalıqların eramızdan əvvəl 400-cü ildən eramızın 43-cü ilinə qədər mövcud olmuş qurbağa kultu ilə əlaqəli ola biləcəyi düşünülürdü. Lakin sümüklərdə kəsik izlərinin olmaması onların insanlar tərəfindən öldürülməsi ehtimalını azaldır.

Pol Klarksonun rəhbərlik etdiyi tədqiqatçılar radiokarbon analizi ilə sümüklərin təxminən 1700 il əvvələ aid olduğunu müəyyən ediblər. Həmin dövrdə Fens bölgəsində suyun səviyyəsinin azalması qurbağaların çoxalması üçün əlverişli şərait yaradıb. Bitki örtüyünün seyrəlməsi isə yırtıcı quşların onları daha asan ovlamasına imkan verib. Sümüklərdəki zədələrin təhlili qurbağaların əsasən bataqlıq bayquşları və çəmən belibağlıları tərəfindən ovlandığını göstərib. Ön ətraf sümüklərinin ölçüləri isə qurbağaların çoxunun bir yaşından kiçik olduğunu üzə çıxarıb.

11 min 400 illik gil məmulatları tapılıb

Türkiyənin cənub-şərqində, Dəclə çayı yaxınlığındakı Çemka Höyük arxeoloji ərazisində tapılan 46 bişmiş gil parçasının təxminən 11 min 400 il əvvələ aid olduğu müəyyən edilib. Bu nümunələr Yaxın Şərqdə aşkarlanan ən qədim bişmiş gil məmulatları sırasındadır. Mardin Artuklu Universiteti, Rusiya Elmlər Akademiyası və Koç Universitetinin alimlərinin iştirak etdikləri tədqiqatda gil parçalarının bir neçə evin döşəməsindən tapıldığı bildirilib. Kömür nümunələrinin analizi həmin təbəqənin təxminən eramızdan əvvəl 9350-ci ilə aid olduğunu göstərib.

Alimlər parçaların ümumilikdə doqquz əşyaya məxsus olduğunu müəyyən ediblər. Bəzi nümunələr tennis topu ölçüsündə oval üzvi materialların üzərinə çəkilmiş gil örtüklərin qalıqlarıdır. Onların xarici səthlərinin yanması bu əşyaların qida hazırlanmasında istifadədə ola biləcəyini ehtimal edir. Təxminən 38 santimetr enində olan parçalardan biri əhəngdaşı qabına birləşdirilmiş ola bilər. Bu, qabın tutumunu artırmaq və ya qapağını bərkitmək məqsədi daşıya bilərdi.

Digər nümunələrin saman və xırdalanmış bitki qalıqları ilə qarışdırılmış gildən hazırlanmış qalın divarlı qablara aid olduğu ehtimal edilir. İki parçada heyvan peyininin izləri də aşkarlanıb. Mikroskopik analiz və rentgen difraksiyası bəzi nümunələrin yüksək temperaturun təsirinə məruz qaldığını göstərib. Lakin daxili hissələrin qara, səthlərin isə qırmızımtıl olması onların qısa müddət ərzində və tam bişirilmədiyini göstərir.

Tədqiqatçılara görə, bu tapıntılar qədim insanların saxsı qab istehsalının geniş yayılmasından təxminən 2000 il əvvəl bişmiş gil məmulatları hazırlamağı sınaqdan keçirdiklərini göstərir.

XVI əsr qıfılının şifrəsi açılıb



Uels sahillərində batmış gəmidən tapılan XVI əsrə aid mis qıfılın sirri mikro-kompüter tomoqrafiyası (mikro-CT) vasitəsilə açılıb. Araşdırmanı Uels Milli Muzeyi və Kardiff Universitetinin alimləri aparıblar.

1583-cü ildə fırtına nəticəsində batan "Ann Frances" adlı ingilis ticarət gəmisinin qalıqları arasında tapılan qıfılın daxili mexanizmi üçölçülü görüntüləmə ilə araşdırılıb. Kardiff Universitetinin tədqiqatçısı Devid Uilyams mexanizmdəki oyuqları hərflərlə uyğunlaşdıraraq dördhərfli şifrənin ANCE olduğunu müəyyən edib. Muzey əməkdaşları kodu yoxlayaraq qıfılı açmağa nail olublar.

Qıfılın yaxınlığında İspaniyaya aid gümüş sikkələr də aşkarlanıb. Alimlər onun həmin sikkələrin və ya digər qiymətli əşyaların saxlandığı kiçik sandığı qoruduğunu ehtimal edirlər. Lakin sandığın içindəkilər günümüzə qədər gəlib çatmayıb.

Qızılbalıqları qoruyan sualtı robotlar



Norveçin "Stingray Marine Solutions" şirkəti süni intellekt və lazer texnologiyası ilə təchiz edilmiş 3500-dən çox sualtı robotdan istifadə edir. Robotlar balıq fermalarında 112 milyondan çox qızılbalığın dəniz bitlərindən qorunmasına kömək edir. Kameralar vasitəsilə balıqları müşahidə edən sistem süni intellektlə parazitləri aşkar edir və lazer şüası ilə məhv edir. Gecə-gündüz işləyən robotlar balıqların adi həyat tərzinə mane olmur. Kimyəvi vasitələrə ehtiyacı azaldan bu texnologiyadan hazırda Norveçdə yetişdirilən qızılbalıqların 20-25 faizi faydalanır.

Dəniz bitləri balıqçılıq təsərrüfatları üçün ciddi problemdir. Onlarla mübarizədə istifadə edilən kimyəvi maddələr balıqlarda stres yarada, ekosistemə zərər verə və parazitlərdə müqavimət formalaşdıra bilər. Lazer texnologiyası isə kimyəvi müdaxilə olmadan parazitlərin sayını azaltmağa imkan verir. Şirkətin məlumatına görə, robotlardan istifadə edilən təsərrüfatlarda balıqların sağlamlığı yaxşılaşır, tələfat azalır. Parazitlərin azalması ətraf sulardakı vəhşi balıqlar üçün də faydalıdır. Bundan əlavə, parazitləri yeyən təmizləyici balıqlara ehtiyac azalır.

Bununla belə, sistemin quraşdırılması yüksək ilkin xərc tələb edir. Robotlar yalnız yerləşdirildikləri qəfəsləri müşahidə edə bilir, parazitlər isə qaranlıq və bulanıq sahələrdə gizlənə bilər. Buna görə texnologiya parazitləri tamamilə yox etməkdən çox, onların sayını nəzarətdə saxlamaq üçün nəzərdə tutulub.

Hazırladı:
Ülkər XASPOLADOVA,
"Azərbaycan"

TRIPP: Ermənistan üçün geriyə yol yoxdur

Vətən müharibəsində qazandığımız tarixi Zəfərdən sonra regionumuzda yeni bir reallıq yaranıb. Ağır məğlubiyyətə uğrayan Ermənistan 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanatı imzalamaqla həmin sənədin 9-cu bəndində ərazisindən Naxçıvana gedən kommunikasiyaların açılması barədə öhdəlik götürüb.

Ermənistan təxminən 5 il ərzində üzərinə götürdüyü həmin öhdəlikdən müxtəlif bəhanələrlə yayınırdı. Səbəb şimal və cənub qonşularımızın Ermənistana göstərdiyi təzyiq idi. Onlar mümkün qədər bu yolun açılmasına imkan verməmək, bu alınmasa, dəhlizə nəzarəti ələ keçirmək istəyirdilər. Bunu müşahidə edən ölkəmiz diplomatik fəallığını daha da artırdı. Həmin layihənin reallaşmasına zəmanət verə biləcək ölkə kimi Amerika Birləşmiş Ştatlarını cəlb etdi. ABŞ ən yüksək səviyyədə bu dəhlizin fəaliyyətə başlaması barədə zəmanət verdi. Dəhlizin adının TRIPP adlandırılması isə bu işin arxasında kimin durmasına işarə idi.

2025-ci il avqustun 8-də Vaşinqtonda ABŞ-nin zəmanəti ilə iki ölkə arasında imzalanan sənəd Zəngəzur dəhlizi (TRIPP) layihənin reallaşmasına şübhə yeri qoymadı. Buna baxmayaraq, Rusiya və İrandan dəhlizin açılması əleyhinə müxtəlif bəyanatlar səsləndirildi. Onlar bu işdə Ermənistanın zəif bənd olduğunu bildikləri üçün rəsmi İrəvana təzyiq göstərməkdə davam etdilər.

Bu dəfə də Azərbaycanın diplomatik gedişləri məsələnin həllinə təkan verdi. ABŞ-nin daxili təhlükəsizlik naziri Markveyn Millinin noyabrın 22-də Bakıya səfəri dəhlizin açılması məsələsinə nöqtə qoydu. Amerikalı nazir Prezident İlham Əliyevlə görüşdən sonra Ermənistana səfər etdi. Noyabrın 23-də rəsmən Zəngəzur dəhlizinin (TRIPP) açılması bəyan edildi və işə başlanıldı.

Onu da vurğulayaq ki, Zəngəzur dəhlizində (TRIPP) tikinti işlərinə başlanmasında ABŞ ilə bağlanan "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatlar Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanaraq vurğulayır. Dövlətimizin başçısı İğdır Universitetinin təşkilatçılığı ilə "İpək yolunun yenidən dirçəlişi" mövzusuna həsr olunmuş Beynəlxalq Qafqaz Konqresi iştirakçılarına göndərdiyi təbrik məktubunda yazmışdır: "Cənubi Qafqazda dayanıqlı sülhün bərqərar edilməsi bu regionu beynəlxalq nəqliyyat dəhlizləri və iqtisadi əməkdaşlıq baxımından mühüm strateji əhəmiyyətə malik məkana çevirmişdir. Azərbaycanın təşəbbüsü ilə hazırda reallaşdırılan Zəngəzur dəhlizi



(TRIPP) Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqəni təmin etməklə yanaşı, Türkiyə ilə birbaşa quru nəqliyyat əlaqələrimizin genişlənməsinə, eyni zamanda Orta dəhlizin imkanlarının artırılmasına, beynəlxalq ticarət və logistika əlaqələrinin inkişafına və daha geniş mənada tarixi İpək yolunun dirçəldilməsinə xidmət edəcəkdir.

İnanıram ki, Beynəlxalq Qafqaz Konqresi regionumuzun gələcək inkişaf perspektivlərinin, İpək yolunun bərpası imkanlarının müzakirəsi üçün əhəmiyyətli platforma olacaq, bölgədə sülhün, sabitliyin, qarşılıqlı etimadın möhkəmləndirilməsinə və dayanıqlı inkişafın təmin edilməsinə öz töhfəsini verəcəkdir".

Zəngəzur dəhlizinin (TRIPP) açılması Orta dəhlizlə ildə əlavə 15 milyon ton yük daşınmasına imkan verəcək. Bu yol yüklərin həm Avropaya, həm də Yaxın Şərq ölkələrinə daha tez çatdırılmasını və yüklərin qovşaq ölkəsindən "tıxac" olmadan sürətlə daşınmasını təmin edəcək.

Azərbaycan region ölkələri arasında nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində ən çox iş görən ölkədir. Biz ərazilərimiz işğaldan azad edildikdən sonra Zəngəzur dəhlizinin (TRIPP) açılması barədə Ermənistanın qərarını gözləmədən Zəngilana kimi dəmir yolu xəttinin tikintisinə başladıq. Hazırda işlərin çox hissəsi başa çatıb, gələn ilin əvvəlində burada görülən işlərin tamamlanması gözlənilir.

Layihə çərçivəsində Naxçıvan Muxtar Respublikasında da dəmir yolu infrastrukturunun yenilənməsi istiqamətində işlər davam edir. "Azərbaycan Dəmir Yolları" QSC-dən verilən məlumata görə, Ordubad rayonunda yenidən qurulan dəmir yolu xətti üzərindən müxtəlif ölçülü suötürücü qurğuların tikintisi başa çatıb. Məlumatda həmçinin bildirilir ki, dəmir yolu xəttinin ox üzrə uzunluğu 194,2, yan yollarla birlikdə 264 kilometrdir. Layihə çərçivəsində 10 stansiyanın yenidən qurulması, 800-dən artıq mühəndis qurğusunun, o cümlədən körpü, tunel, qalereya və yolötürücülərin, avtomobil, piyada və heyvan keçidlərinin inşası nəzərdə tutulur. Ordubad istiqamətindən ilk 7 kilometr hissədə köhnə dəmir yolu yatağı sökülüb, rels-şpal çərçivələri quraşdırılıb, müxtəlif ölçülü suötürücü qurğuların tikintisi başa çatıb. Digər sahələrdə köhnə yol yatağının söküntüsü və torpaq işləri də davam edir.

Rüstəm KAMAL,
"Azərbaycan"

Bilmək istəyirəm

- İpoteka Fondundan kirayə mənzil götürmək istəyirəm. Bunun üçün hara müraciət etməliyəm və hansı sənədlər lazımdır?

Aytac SEYİDZADƏ,
Bakı şəhəri

- Sualınıza cavab olaraq bildiririk ki, Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun "Satmaq öhdəliyi ilə kirayə mənzil" mexanizmi, xüsusilə ipoteka kreditlərinə ilkin ödəniş toplamaqda çətinlik çəkən, lakin rəsmi gəliri olan vətəndaşlarımız (o cümlədən gənc ailələr və mənzil şəraitini yaxşılaşdırmaq istəyənlər) üçün sosial baxımdan çox əhəmiyyətli alternativdir.

Bu mexanizm, sadəcə, klassik kirayə münasibəti deyil, uzunmüddətli (3 ildən 25 ilə qədər) ödənişlərlə mənzil mülkiyyətinə yiyələnmək hüququ verən mülki-hüquqi müqavilədir.

Bütün proses tam rəqəmsallaşdırılıb və müraciətlər mərkəzləşdirilmiş qaydada elektron sistem üzərindən həyata keçirilir. Bunun üçün fiziki olaraq hansısa xidmət mərkəzində növbə gözləməyə ehtiyac yoxdur.

İlk növbədə gücləndirilmiş elektron imzanız ("ASAN İmza", "SİMA İmza", "SİMA Token" (elektron imza), BSXM imza) olmalıdır.

İpoteka və Kredit Zəmanət Fondunun rəsmi internet səhifəsindəki *"Elektron İpoteka və Kredit Zəmanət"* sistemi vasitəsilə özünüzə elektron kabinet yaradır və həmin kabinetdəki ərizə-anketi doldurursunuz.

Sistemdəki tələblərə uyğunluğunuz təsdiq edildikdən sonra fondun təqdim etdiyi tam təmirli, kommunal xətləri (qaz, su, işıq) qoşulmuş hazır mənzillər siyahısından öz büdcənizə uyğun seçim edə bilərsiniz.

Müraciət prosesi iki mərhələdən ibarətdir: ilkin elektron qeydiyyat və təsdiq mərhələsində fondun səlahiyyətli nümayəndələri ilə görüş zamanı təqdim ediləcək sənədlər.

İlkin elektron mərhələ üçün gücləndirilmiş elektron imza sertifikatı ("ASAN İmza", "SİMA İmza", "SİMA Token" (elektron imza), BSXM imza), "Elektron İpoteka və Kredit Zəmanət" sistemində gücləndirilmiş elektron imza sertifikatları ilə yaradılan elektron kabinet və elektron kabinetdə daxil edilən məlumatlar əsasında tərtib olunan *elektron ərizə-anket* mütləqdir.

Fondun səlahiyyətli nümayəndələri ilə rəsmi görüş zamanı *şəxsiyyəti təsdiq edən sənəd* (şəxsiyyət vəsiqəsi), *gəlirləri təsdiq edən sənədlər* (rəsmi əməkhaqqı arayışı, fərdi sahibkarlıq fəaliyyəti üzrə gəlir sənədləri və s. - gəlirləriniz ailənin ümumi aylıq ödənişlərini və yaşayış xərclərini qarşılamağa imkan verməlidir), *məhkumluq haqqında arayış* (vətəndaşın qanunvericiliklə müəyyən edilmiş tələblərə uyğunluğunu yoxlamaq üçün), *ailə tərkibini təsdiq edən sənəd* və yetkinlik yaşına çatmamış ailə üzvlərinin şəxsiyyət vəsiqələri, nikahı və ya *nikahın pozulmasını təsdiq edən sənədin* (varsa) təqdim olunması zəruridir.

Unutmayın ki, kirayəçi Azərbaycan Respublikasının vətəndaşı olmalı, məhkumluğu olmamalı, müraciət anına vaxtı keçmiş öhdəlikləri olmamalı, müraciət anına fondun vəsaiti hesabına verilmiş aktiv ipoteka krediti üzrə borcalan olmamalı, müraciət anına yaşı 60-dan yuxarı olmamalı, rəsmi gəlirlərə malik olmalı, müraciətin qiymətləndirilməsi anına mənfi kredit tarixçəsi olmamalıdır.

Bir şəxs eyni zamanda fond qarşısında yalnız bir aktiv kirayə müqaviləsi üzrə kirayəçi və bir aktiv kirayə müqaviləsi üzrə gəlirləri nəzərə alınan şəxs qismində çıxış edə bilər. Ailə birliyinə münasibətdə isə ər və ya arvad eyni zamanda fond qarşısında yalnız bir aktiv kirayə müqaviləsi üzrə kirayəçi və hər biri ayrılıqda bir aktiv kirayə müqaviləsi üzrə gəlirləri nəzərə alınan şəxs qismində iştirak edə bilər.

Həmçinin ən çox diqqətçəkən sosial məqamlardan biri budur ki, klassik ipoteka kimi böyük ilkin ödəniş tələb olunmasa da, müqavilə imzalanan zaman seçilmiş mənzilin *12 aylıq (1 illik) kirayə haqqı məbləği* qabaqcadan ödənilməlidir.

Sualı cavablandırdı:
Paşa SƏFƏROV,
Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü

Aİ liderləri yeni büdcə ilə bağlı razılığa gələ bilmədilər

Avropa İttifaqına (Aİ) üzv olan 27 ölkənin lideri 2028-2034-cü illəri əhatə edən uzunmüddətli büdcənin həcmi barədə ortaq məxrəcə gələ bilməyiblər. İki gün davam etməsi planlaşdırılan Brüssel Sammiti noyabrın 27-nin ilk saatlarında yarımçıq dayandırılıb və müzakirələr dekabrın 17-nə təxirə salınıb.



"BBC"-nin məlumatına görə, Avropa Şurasının prezidenti Antonio Koşta və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen sammitdən sonra birgə mətbuat konfransı keçiriblər. A.Koşta bildirib ki, liderlər büdcənin ümumi həcmi, vəsaitlərin bölüşdürülməsi və yeni gəlir mənbələrinin tapılması kimi üç əsas məsələni müzakirə etsələr də, razılıq əldə olunmayıb. Yeni büdcənin 2028-ci il yanvarın 1-də qüvvəyə minməsi üçün ilin sonuna qədər yekun qərar verilməlidir və bunun üçün bütün üzv ölkələrin yekdil səsi tələb olunur.

Avropa Komissiyası əvvəlcə təxminən 2 trilyon avroluq büdcə təklif etmişdi. Antonio Koşta razılıq əldə etmək üçün bu məbləği 204 milyard avro azaltmağı irəli sürmüşdü. Lakin daha kiçik büdcə istəyən 7 ölkə - Almaniya, Avstriya, Belçika, Danimarka, Finlandiya, Niderland və İsveç bu azalmanı kifayət saymayıb və təxminən 250 milyard avroluq ixtisar tələb ediblər. Almaniya Kansleri Fridrix Merts yeni borclanmaya qəti şəkildə qarşı çıxaraq, hətta təklif olunan endirimdən sonra belə büdcənin əvvəlki 2021-2027-ci illər çərçivəsindən təxminən 50 faiz böyük olduğunu vurğulayıb. Xərclərin azaldılmasını tələb edən bu 7 ölkənin lideri A.Koştanın danışıqları aparmaq tərzinə etiraz edərək axşam keçirilən kiçik qrup müzakirələrini boykot ediblər.

Digər ölkələr isə fermerlərə dəstəyin və daha az inkişaf etmiş regionların inkişafı üçün ayrılan vəsaitlərin azaldılmasına qarşı çıxıblar. İtaliyanın Baş naziri Corcia Meloni "daha çox ödəyib daha az alacaqları" bir büdcəyə imza atmayacaqlarını bəyan edib. Baltikyanı ölkələr isə müdafiə xərclərində nəzərdə tutulan 39 milyard avroluq ixtisara etiraz ediblər. Avropa Parlamenti də öz növbəsində xarici siyasət və ittifaqın genişlənməsi üzrə maliyyənin kəsilməsinə qarşı çıxaraq, əksinə, bu sahəyə 25 milyard avro əlavə vəsait ayrılmasını tələb edib.

Ursula fon der Lyayen büdcəyə yeni gəlir mənbələrinin cəlb edilməsi istiqamətində irəliləyiş olduğunu və rəqəmsal xidmətlər vergisinin geniş dəstək qazandığını deyib. O həmçinin 2027-ci ildə Ukraynaya əlavə 45 milyard avro maliyyə dəstəyi verilməsi təklifini 24 üzv ölkənin dəstəklədiyini bildirib. Bolqarıstan isə bu yardımın yalnız qeyri-hərbi hissəsində iştirak edəcəyini açıqlayıb, Macarıstan, Slovakiya və Çexiya isə təklifə qoşulmayıblar. Macarıstanın Baş naziri Peter Madyar mövqelərin tamamilə zidd olduğunu bildirərək dekabr sammitində belə, razılığın əldə olunacağına şübhə ilə yanaşıb.

Büdcə danışıqları nəticəsiz qalsa da, liderlər Avropa Mərkəzi Bankının yeni rəhbərliyi ilə bağlı razılığa gəliblər. Bankın prezidenti vəzifəsinə Pablo Ernandes de Kosun, İdarə Heyətinin digər iki üzvlüyünə isə Lorens Bun və Markus Brunnermeyerin namizədliyi irəli sürülüb. Yekun qərar dekabr sammitində qəbul ediləcək.

Təhminə VERDİYEVA,
"Azərbaycan"

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

"Təzə Yol" MMC-yə məxsus möhür itdiyi üçün etibarsız sayılır.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 538-35-55
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60, 434-55-58
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə
az.reklam@mail.ru

www.azerbaijan-news.az

Qeydiyyat № 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 3320
Sifariş 1545
Qiyməti 60 qəpik